# QURANDA
# ŞƏFQƏT
# VƏ
# ƏDALƏT

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

Bu kitabda istifadə olunan ayələr Ziya Bünyadov və Vasim Məmmədəliyevin birlikdə hazırladığı Qurani-kərim tərcüməsindən və Əlixan Musayevin Qurani-kərim tərcüməsindən götürülmüşdür.

**Birinci nəşr: dekabr, 2001**
**İkinci nəşr: sentyabr, 2005**
**Üçüncü nəşr: oktyabr, 2005**
**Dördüncü nəşr: mart, 2006**
**Beşinci nəşr: iyul, 2006**
**Altıncı nəşr: iyun, 2007**
**Yeddinci nəşr: oktyabr, 2008**
**Səkkizinci nəşr: mart, 2010**

**ARAŞTIRMA**
**YAYINCILIK**

Talatpaşa Mah. Emirgazi Caddesi
İbrahim Elmas İşmerkezi
A Blok Kat 4 Okmeydanı - İstanbul
Tel: (0 212) 222 00 88

Baskı: Entegre Matbaacılık
Sanayi Cad. No: 17 Yenibosna-İstanbul
Tel: (0 212) 451 70 70

**www.harunyahya.org - www.harunyahya.net**
**www.harunyahya.tv**

**İÇİNDƏKİLƏR**

YARADILIŞ HƏQİQƏTİ

GİRİŞ

ALLAH ƏDALƏTLİ OLMAĞI ƏMR EDİR

PEYĞƏMBƏRLƏR ƏDALƏTİ GƏTİRİBLƏR

QURANDA KİTAB ƏHLİ

ƏSİL ƏDALƏTİN OLDUĞU CƏMİYYƏTDƏ ƏMİN-AMANLIQ

NƏTİCƏ

DARVİNİZMİN SÜQUTU

## OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin bütün din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm məlumatın bütün insanlara çatdırılması labüddür. Bəzi oxucularımızın, bəlkə də, bir kitabımızı oxumaq imkanı olar. Ona görə hər kitabımızda qısa da olsa, bu mövzuya bir bölmə ayırmağı uyğun hesab etdik.

Digər xüsus bu kitabların məzmunu ilə bağlıdır. Müəllifin bütün kitablarında imani mövzular Quran ayələri əsasında izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və Qurana uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün mövzular oxucunun ağlında heç bir şübhə və sual doğurmayacaq şəkildə açıqlanır.

Əsərlərin səmimi, sadə və axıcı üslubu kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsinə imkan verir. Bu təsirli və açıq-aydın izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ifadəsinə tam uyğun gəlir. Dini qətiyyətlə inkar edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar etmirlər.

Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən həm fərdi şəkildə, həm də qarşılıqlı söhbət şəraitində oxuna bilər. Bu kitabların qrup şəklində birlikdə oxunması, oxuyucuların mövzu ilə bağlı şəxsi təfəkkür və təcrübələrini bir-birləri ilə paylaşması faydalı olar.

Bununla yanaşı, sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarının sübut və inandırıcı cəhəti çox güclüdür. Bu səbəbdən dini təbliğ etmək istəyənlər üçün ən təsirli metod digər insanları da bu kitabları oxumağa təşviq etməkdir.

Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan məmnun olduğuna ümid bəslədiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik bir çox əsərin olduğunu görəcək. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə olduğuna şahid olacaqdır.

Bu əsərlərdə bəzi əsərlərdə rast gəlinən müəllifin şəxsi fikirlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, dini dəyərlərə qarşı ədəbə və hörmətə uyğun gəlməyən üsluba, şübhə doğuran, ümidsizliyə sürükləyən izahlara rast gəlmək mümkün deyil.

## MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. İbtidai və orta təhsilini Ankarada tamamlayıb. Daha sonra İstanbul Memar Sinan Universitetinin incəsənət fakültəsində və İstanbul Universitetinin fəlsəfə fakültəsində təhsil alıb. 1980-ci ildən etibarən imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bunlarla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Harun Yəhyanın əsərləri təqribən 30.000 şəkildən ibarət ümumilikdə 45.000 səhifəlik külliyyatdır. Bu külliyyat 60 müxtəlif dilə tərcümə edilmişdir.

Müəllifin təxəllüsü inkarçı düşüncə tərzinə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmətlə Harun və Yəhya adlarından ibarətdir. Müəllif tərəfindən kitablarının üz

qabığında Rəsulullahın möhürünün istifadə olunmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) də xatəmül-ənbiya olmasına işarə edir. Müəllif də nəşr etdirdiyi bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Beləliklə, inkarçı ideologiyaların bütün təməl iddialarını bir-bir çürütməyi və dinə qarşı etirazları tam susduracaq şəkildə son sözü söyləməyi hədəfə alır. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən son sözü söyləmə niyyətinin duası kimi istifadə edir.

Müəllifin bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləcə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə təşviq etmək, inkarçı sistemlərin çürük təməllərini və batil icraatlarını üzə çıxarmaqdır.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox ölkəsində bəyənilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, bosnyak, uyğur, indonez, malay, benqal, serb, bolqar, çin, kişvahili (Tanzaniyada danışılır), hausa (Afrikada geniş ərazidə danışılır), dhivelhi (Mavrikidə danışılır), danimarka və isveç dillərinə tərcümə edilən əsərlər ölkə xaricində geniş oxucu kütləsi tərəfindən oxunur.

Dünyanın hər tərəfində çox bəyənilən bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanda dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, təhlil edən hər kəs bu əsərlərdəki hikmətli, ətraflı, asan, anlaşıqlı və səmimi üslubun, ağıllı, elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir, qəti nəticə vermə, təkzibedilməzlik xüsusiyyətləri daşıyır. Əsərləri oxuyan və üzərində ciddi düşünən insanların materialist fəlsəfəni, ateizmi və digər batil ideologiyaları səmimi müdafiə etməsi mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq emosional inadkarlıqla müdafiə edəcəklər, çünki ideoloji təməlləri çürüdülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olublar.

Şübhəsiz ki, bu xüsusiyyətlər Quranın hikmətli və təsirli üslubundan qaynaqlanır. Müəllifin niyyəti bu əsərləri ilə öyünmək deyil, sadəcə Allahın hidayətinə vəsilə olmaqdır. Bundan əlavə, əsərlərin nəşr olunmasında və yayımlanmasında hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətləri nəzərə alaraq deyə bilərik ki, insanlara görmədiklərini görməyə kömək edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasına təşviq etmək də çox mühüm xidmətdir.

Bu dəyərli əsərləri tanıtmaq əvəzinə, insanların zehnini bulandıran, fikirlərini qarışdıran, şübhə və tərəddüdlərini yox etməyən, imanı xilas etməkdə güclü təsiri olmayan bəzi kitabları yaymaq əmək və zaman itkisidir. İmanı xilas etmək məqsədindən daha çox müəllifinin ədəbi gücünü vurğulayan əsərlərlə bu təsirin əldə edilməyəcəyi aydındır. Bu barədə şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaq və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətin təsirinin, uğurunun və səmimiyyətinin açıq-aydın göründüyünü oxucuların ümumi qənaətindən də anlaya bilərlər.

Dünyadakı zülm və qarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətin əsas səbəbi dinsizliyin ideoloji hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikrən məğlub edilməsi, iman həqiqətlərinin göstərilməsi və Quran əxlaqının insanların qavrayacağı və bu əxlaqla yaşayacağı şəkildə izah edilməsidir. Dünyada günbəgün daha çox zülmün, fitnə-fəsadın və qarışıqlığın yayılması nəzərə alındıqda bu xidmətin mümkün olduğu qədər

sürətli və təsirli şəkildə yerinə yetirilməsinin vacibliyi aydın olur. Əks təqdirdə çox gec ola bilər.

Bu mühüm xidmətdə öncül rolu üzərinə götürmüş Harun Yəhya külliyyatı, Allahın izni ilə, 21-ci əsrdə insanları Quranda təsvir edilən sülh və əmin-amanlığa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə çıxarmağa vəsilə olacaq.

## YARADILIŞ HƏQİQƏTİ

Bir zülalın təsadüfən əmələ gəlmə ehtimalı $10^{950}$-də 1-dir. Bu isə qeyri-mümkündür. Bir zülal belə təsadüfən əmələ gələ bilmir, darvinistlər isə milyonlarla zülaldan ibarət mənim kimi bir canlının təsadüfən əmələ gəldiyini iddia edirlər.

www.kuranvebilim.com

**Sizin tanrınız ancaq O Allahdır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elm ilə hər şeyi ehtiva etmişdir!" (Ta ha surəsi, 98)**

Bir insanın burnunda 5-10 milyona yaxın qoxu hüceyrəsi var, mənim burnumda 220 milyona yaxın qoxu hüceyrəsi var. Sahib olduğum hər xüsusiyyət uca Allahın mənə verdiyi bənzərsiz nemətlərdir.

www.yaratilismuzesi.com

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? (Nəhl surəsi, 17)**

Allah anamın bətnində bir ortaq əsas hüceyrəni çoxaldaraq mənim bütün toxumalarımı, orqanlarımı, üzümü, gözlərimi əmələ gətirib. Rəbbim yaratdığı bütün hüceyrələrimə nə qədər çoxalacaqlarını, çoxalmanı nə vaxt dayandıracaqlarını və hansı orqanlarımı əmələ gətirəcəklərini daim onlara ilham edir.

**Allah belə buyurdu: "İki tanrı qəbul etməyin. O yalnız tək bir tanrıdır. Ancaq Məndən qorxun!" Göylərdə və yerdə nə varsa, hamısı Onundur! Din də daim Onundur. Belə olduğu təqdirdə Allahdan başqasındanmı qorxursunuz? (Nəhl surəsi, 51-52)**

www.bilgilerdunyasi.net

Darvinistlər mənim bir hüceyrəmi belə izah edə bilmirlər, ancaq bütün gözəlliyimin, ətrafımdakı ağacların, digər çiçəklərin, meyvələrin, ucsuz-bucaqsız meşələrin təsadüfən əmələ gəldiyini iddia edirlər. Halbuki məni də, ətrafımdakı möhtəşəm gözəllikləri də yaradan aləmlərin Rəbbi olan uca Allahdır.

www.yaratilisguzellikleri.com

**O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol!.. (Məryəm surəsi, 65)**

Darvinistlər anamın mənə şəfqətini kortəbii təsadüflərlə izah edirlər. Ancaq şüursuz baş verən hadisələrin fədakarlıq, şəfqət və həmrəylik kimi şüur və ağıl tələb edən xüsusiyyətləri necə meydana gətirdiyini heç cür açıqlaya bilmirlər.

www.darwininbilmedikleri.com

**(Bütün bunlar Rəbbinə) üz tutan hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihətdir. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. (Qaf surəsi, 8-9)**

www.yaratilismucizesi.com

Mənim təkcə bir DNT-min hər hansı pilləsindəki, məsələn, 719 milyon 348 min 632-ci pillədəki bir hərf belə səhv şifrlənsə, bu xəta mənim üçün qorxunc nəticələr törədər. Buna baxmayaraq, darvinistlər qüsursuz quruluşumun təsadüfən əmələ gəldiyini iddia edirlər. Bunun qeyri-mümkün olduğu açıq-aydındır.

www.darwinnedenyanildi.com

Düşmənlərimizə qarşı yırtıcı olmağımıza baxmayaraq, ailəmizə qarşı çox şəfqətli və sevgi doluyuq. Əgər hər şey darvinistlərin dediyi kimi, şüursuz hadisələr nəticəsində baş verirsə, onların iddia etdiyi kimi, təbiətdə ancaq mübarizə varsa, onda sevgini, şəfqəti, himayədarlığı, balalarımıza qarşı fədakar davranışları bilməzdik.

www.kurandayaratilis.com

"Ən qədim tısbağalara Almaniyadakı Trias dövrünün fosil yataqlarında rast gəlinir. Bu gün yaşayan nümunələrinə çox bənzəyən bərk qabıqları sayəsində asanlıqla digər növlərdən fərqlənirlər. Daha erkən və ya daha ibtidai tısbağalara aid heç bir iz müəyyən edilməyib. Halbuki tısbağalar asanlıqla fosilləşirlər və fosillərinin çox kiçik hissələri belə tapılsa, asanlıqla tanınırlar." (Robert Carroll, Vertebrate Paleontology and Evolution, səh. 207)

www.surungenfosilleri.com

37-23 milyon illik tısbağa fosili

Maralların onlarla növündən biri olan xallı marala dünyanın bir çox bölgəsində rast gəlmək mümkündür. Fosilləşərək bu günə qədər mühafizə olunan bu maral kəlləsi yer üzündə təkamül prosesinin baş vermədiyini, canlıların yaradıldıqları şəkildə qorunduğunu göstərir.

www.darwinistneleridusunmez.com

Dövr: Mezozoy erası, Təbaşir dövrü
Yaşı: 78 milyon il
Bölgə: Çin

78 milyon yaşında olan marala aid bu kəllə sümüyünün dövrümüzdəki marallardan heç bir fərqi yoxdur.

Təkamülçülərin iddiaları doğru olsa idi, keçmişdə həm antilop xüsusiyyəti daşıyan, həm də başqa canlı növünün xüsusiyyətlərinə malik qəribə canlı olmalı idi. Çoxlu sayda uydurma hekayə və xəyali ssenarilərlə dolu olan təkamülçü mənbələrdə heç bir ara-keçid canlının fosili göstərilmir. Çünki belə bir canlı heç bir dövrdə yaşamayıb. Bütün canlılar şəkildə görünən 83 milyon illik antilop kimi yaradıldıqları şəkildə dövrümüzə qədər gəlib çıxıblar.

Dövr: Mezozoy erası, Təbaşir dövrü
Yaşı: 83 milyon il
Bölgə: Çin

83 milyon yaşı olan yuxarıdakı antilop kəlləsi ilə dövrümüzdəki antiloplar arasında heç bir fərq yoxdur.

*Mustelidea* fəsiləsinə aid olan dələlər milyon illərdir dəyişməyən quruluşları ilə təkamül nəzəriyyəsinin iddialarını təkzib edən canlılardan biridirlər. Geoloji tədqiqatlar bütün digər elm sahələri kimi təkamül nəzəriyyəsinin əsassızlığını ortaya qoyur, Yaradılışın açıq-aydın həqiqət olduğunu göstərir.

www.kafatasifosilleri.com

Dövr: Kaynozoy erası, Miosen dövrü
Yaşı: 23 - 5 milyon il
Bölgə: Çin
Yuxarıdakı 23-5 milyon yaşındakı dələ kəlləsindən də göründüyü kimi, dələlər milyon illərdir ki, dəyişməyiblər və quruluşları ilə onları Allahın yaratdığını sübut edirlər.

Şimal qütbü bölgəsində bəzən -40 dərəcəyə çatan şaxtada yaşayan qütb tülküləri qidalanmaq üçün bəzən 1000 kilometrlik yol qət edirlər. Allahın çətin şəraitə dözümlü yaratdığı qütb tülküsünün fosilləşmiş kəllə sümükləri dövrümüzdəki canlı nümunələrinə

eynilə bənzəyir. Bu açıq-aydın dəlil bütün canlılar kimi, tülkülərin də yaradıldıqları formada dövrümüzdə yaşadıqlarını göstərir.

www.evrimmasali.com

Dövr: Kaynozoy erası, Miosen dövrü
Yaşı: 8.2 milyon il
Bölgə: Çin
Yan tərəfdə Çində tapılmış 8.2 milyon illik qütb tülküsünün kəllə sümüyü, aşağıda isə dövrümüzdə yaşayan qütb tülküsü görünür.

Darvinistlərin 150 ildir ki, davam edən ara-keçid fosil axtarışı uğursuzluqla nəticələnmişdir. Dövrümüzdə təkamülçülərin dəlil kimi ortaya qoyacaqları heç bir tapıntı yoxdur. Antropoloq Cefri H. Şvartz (Jeffrey H. Schwartz) fosil qeydlərinin darvinizmin əleyhinə olduğunu belə ifadə edir:

Bir çox paleontoloq fosil qeydlərində itmiş halqaları tapmaq əvəzinə, sadəcə böyük boşluqlarla və bu günə qədər qeyd edilmiş fosil növləri arasında hər hansı ara-keçid forma olmaması faktı ilə üzləşib.
(Schwartz, Jeffrey H., Sudden Origins, 1999, s. 89)

www.hayvanlaralemi.net

Dövr: Kaynozoy erası, Miosen dövrü
Yaşı: 23 - 5 milyon il
Bölgə: Çin

Şəkildə 23-5 milyon il əvvələ aid qütb porsuğu kəlləsi (yuxarıda), yan tərəfdə isə dövrümüzdə yaşayan qütb porsuğu görünür.

Kalmarların tarix boyu kalmar olduqlarının sübutu olan şəkildəki 95 milyon illik fosil təkamülçülərin iddialarına meydan oxuyur. Kalmarların təkamül keçirdiyinə dair ən kiçik dəlil belə irəli sürə bilməyən təkamülçülər fosil qeydləri qarşısında böyük peşmançılıq çəkirlər.

www.kuranevrimiyalanliyor.com

Ən yuxarıda Livanda tapılmış 95 milyon illik kalmar fosili görünür. Aşağıdakı isə dövrümüzdə yaşayan kalmar balığıdır.

Dövrümüzdəki pandaların bütün xüsusiyyətlərinə malik olan, 95 milyon il əvvəl yaşamış pandalar təkamülü təkzib edir. Fosillərlə sübut edilən bu həqiqət açıq-aydın ortadadır. Darvinistlərin israrla gözardı etməyə çalışmaları bu həqiqəti dəyişdirməz. Canlılar təkamül prosesi nəticəsində əmələ gəlməyiblər. Bütün canlı və cansız varlıqları Allah yaratmışdır.

www.fosillerevrimireddediyor.com

Dövr: Mezozoy erası, Təbaşir dövrü
Yaşı: 96 milyon il
Bölgə: Çin

Yuxarıda 96 milyon yaşında panda kəlləsi görünür.

Fosil qeydləri səhra tülkülərinin heç vaxt dəyişmədiyini, başqa canlıdan törəmədiklərini sübut edir. Dövrümüzdəki səhra tülküləri ilə hər cəhətdən eyni olan 86 milyon illik şəkildəki səhra tülküsü kəlləsi fosili təkamülçülərin sadəcə xəyallarını dilə gətirdiklərinin dəlilidir. Darvinistlərin iddia etdikləri kimi bir proses heç vaxt baş verməyib, təkamülçü fərziyyələrin elmi əsası yoxdur.

Dövr: Mezozoy erası, Təbaşir dövrü
Yaşı: 86 milyon il
Bölgə: Çin

At nalı xərçəngləri *Chelicerata* (Xeliserlilər) yarımtipinə aiddirlər və hörümçək və əqrəb fəsilələrinə daha yaxındırlar. Şəkildəki 150 milyon yaşındakı at nalı xərçəngi fosili Yaradılışın açıq-aydın həqiqət olduğunu, təkamülün heç vaxt baş vermədiyini bir daha təsdiqləyir.

www.evrimbelgeseli.com

Dövrümüzdə yaşayan at nalı xərçəngi və aşağıda Almaniyada tapılmış 150 milyon illik at nalı xərçəngi fosili.

Təkamülçülər uzun illərdir ki, axtardıqları ara-keçid fosilləri heç cür tapa bilmirlər, digər tərəfdən yaradılışı sübut edən fosillərə hər gün yenisi əlavə olunur. Şəkildəki zebra kəlləsi fosili də bu nümunələrdən biridir. Diş və çənə quruluşu dövrümüzdəki nümunələrindən fərqlənməyən bu fosil təkamül nəzəriyyəsinin böyük yalan olduğunu, bütün canlıları Allahın yaratdığını bir daha sübut edir.

www.dominikamberleri.com

Dövr: Mezozoy erası, Təbaşir-Eosen dövrü
Yaşı: 70 - 40 milyon il
Bölgə: Çin

Yuxarıda diş və çənə quruluşu dövrümüzdəki nümunələrindən fərqlənməyən 70-40 milyon illik zebra kəlləsi fosili görünür.

Darvinistlərin çıxılmaz vəziyyətə düşdüyü mövzulardan biri də məməlilərin mənşəyidir. Təkamülçülər məməlilərin mənşəyinə və bu sinifə daxil olan canlıların bir-birləri ilə "qohumluq" əlaqələrinə dair heç bir dəlil göstərə bilmirlər.

90 milyon illik bu pələng kəlləsi fosili də təkamül nəzəriyyəsinin nə qədər çətin vəziyyətdə olduğunu göstərir.

www.kambriyenvedarwin.com

Dövr: Mezozoy erası, Təbaşir dövrü
Yaşı: 90 milyon il
Bölgə: Çin

90 milyon il əvvələ aid olan bu pələng kəlləsi dövrümüzdəki pələnglərlə eyni xüsusiyyətlərə malikdir və təkamülçülərin iddialarına meydan oxuyur.

# QURANDA ŞƏFQƏT VƏ ƏDALƏT

## GİRİŞ

Siz bu sətirləri oxuduğunuz əsnada dünyanın hər tərəfində müharibələr davam edir, insanlar ölür, şikəst olur, evlərindən, yurdlarından çıxmaq məcburiyyətində qalırlar. Yağış, qar altında yüzlərlə kilometr məsafəni yeriyərək qət edən qaçqınlar aclıq, susuzluq və yoluxucu xəstəliklərlə mübarizə aparırlar, lakin bu zülmü edən şəxslər vicdanları rahat şəkildə həyatlarına davam edir, yemək yeyir və isti yataqlarında rahat yatırlar. Hal-hazırda dünyadakı bəzi ölkələrə baxdıqda görürük ki, maddi güc sahibi olan azlıqlar ədaləti ürəkləri istədiyi vaxt tətbiq etdirlər. Əgər "insafa gəlsələr", ehtiyac içində olan insanlara yardım əli uzadırlar, əgər "insafa gəlsələr", ədalətli davranırlar. Dünyanın dörd bir tərəfində bəzi insanlar haqsız qazanc əldə edərək, yoxsulların haqqını yeyərək rifah içində yaşayırlar. Günahsız insanlar cəzalandırılır, günahkarlar etibar və iltifat görürlər.

Qısası, dünyadakı bir çox ölkədə ədalətsizlik hökm sürür. Bəs nə üçün? İnsanlar ədalətin vacibliyinə inanmırlarmı?

Əslində, "ədalət" dedikdə hər kəs eyni məfhumu anlayır və bu məfhum bir çox insan tərəfindən qəbul edilir. Bu, heç bir fərq qoymadan bütün insanları əhatə edən, insanlar arasındakı dil, din, irq kimi fərqlərə baxmayaraq, imkanları haqqa uyğun şəkildə bölüşdürən, güclülərin deyil, haqlıların üstün olduğu dünya qurmağı hədəfləyən ədalətdir.

İnsanları ədalətdən uzaqlaşdıran amil prinsip olaraq qəbul etdikləri ədaləti öz mənfəətlərinə zidd olduqda rədd etmələridir. Məsələn, rüşvətin pis yol olduğunu, rüşvət yeyərək ədalətsizlik etməyin əxlaqsızlıq olduğunu hər kəs qəbul edir. Ancaq özlərinə rüşvət təklif edildikdə bəzi insanlar müəyyən "səbəblər" uyduraraq qəbul etdikləri prinsipləri heç düşünmədən tapdalayırlar.

Eyni şəkildə, məhkəmələrdə şahidlik edən insanların mütləq doğru danışmasının, həqiqəti söyləməsinin vacibliyini hər kəs bilir və qəbul edir. Halbuki məhkəmədə şahid kimi ifadə verən bəzi insanlar özlərinin və ya yaxınlarının mənfəətinə zidd olduqda dərhal rəftarlarını dəyişir və asanlıqla yalan danışırlar. Bu insanlar ədaləti prinsip olaraq qəbul edirlər, ancaq öz mənfəətlərinə zidd olduğu anda tərəddüdsüz tapdalayırlar. İctimaiyyətə açıq olan malların bərabər paylanmasını hər kəs prinsip olaraq qəbul edir. Ancaq yardım kampaniyası olduqda paylanan mallardan daha çox, həm də haqqından çox almaq üçün bir çox insan bir-birini əzir. Çünki yenə mənfəətlər ədalətə üstün gəlir.

Bu cür çoxlu nümunə göstərə bilərik. Ancaq nəticədə qarşılaşdığımız həqiqət eynidir: bəzi insanlar ədalətin vacibliyinə inansalar da, mənfəətlərinə uyğun gəlmədikdə ədaləti tapdalayırlar. Bu cür düşünən insanlar cəmiyyətdə əksəriyyəti təşkil edir, ədalət isə xəyali məfhum olaraq qalır.

Ədalətin yer üzündə tam tətbiq edilməsi üçün insanların ədalət uğrunda öz mənfəətlərini kənara qoya biləcək əxlaqa ehtiyacları var.

Bu əxlaq Allahın bizə öyrətdiyi və əmr etdiyi Quran əxlaqıdır. Çünki Quran əxlaqı insanlar arasında heç bir fərq qoymadan, sadəcə haqq və doğruluqla, tam ədaləti əmr edir. Allah Nisa surəsində inananlara öz əleyhlərinə belə olsa, ədalətlə davranmağı belə əmr edir:

**Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan uzaqlaşmayın! Əgər dilinizi əyib büzsəniz və ya boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır! (Nisa surəsi, 135)**

Ayədə də bildirildiyi kimi, insanlar arasında heç bir ayrı-seçkilik etmədən, sadəcə Allah rizası üçün, Allahdan qorxaraq edilən ədalət əsil ədalətdir. Bu cür ədalətlə verilən qərara şəxsi mənfəət, dostluq, düşmənçilik, şəxsin düşüncə tərzi, dili, irqi, dərisinin rəngi təsir etməyəcək, qərar sadəcə haqq ilə veriləcək. Quran əxlaqı ilə yaşayan cəmiyyətdə əsil ədalətin, əmin-amanlığın və təhlükəsizliyin olacağı mütləqdir. Çünki ancaq Allahdan qorxan, məhşər günü etdiyi əməlləri ilə haqq-hesaba çəkiləcəyini bilən insan əsil ədaləti təmin edə bilər.

Tarix də bunu sübut edir. Allahın **"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər."** (Əraf surəsi, 181) şəklində bildirdiyi kimi, tarix boyu ədalətin hakim olduğu dövrlər olmuşdur. Başda peyğəmbərlər və sonra da onların yolunu davam etdirən bir çox ədalətli hökmdarlar yaşadıqları dövrdə cəmiyyətdə sülh və əmin-amanlıq mühiti formalaşdırıblar. Məsələn, müsəlman türk milləti keçmiş əsrlərdə əsil ədalətin təmin edilməsi sahəsində bütün dünya ölkələrinə nümunə olmuşdur. İstər Səlcuqilər dövründə, istərsə də Osmanlı dövründə müxtəlif dinlərə mənsub, ayrı dillərdə danışan müxtəlif xalqlar eyni bayraq altında, birlikdə əmin-amanlıq şəraitində yaşamış və sosial ədalət bərqərar edilmişdir. Müsəlman türklər ayaq basdıqları hər yerdə ədalətli rəftarları ilə tanınıblar, mehriban, sülhsevər və mərhəmətli davranışlarına görə fəth edilən ölkələrin xalqları tərəfindən sevinclə qarşılanıblar.

Əlinizdəki bu kitabın məqsədi isə Qurandakı ədaləti insanlara izah etməkdir. Ancaq unutmayın ki, bu cür əmin-amanlıq içində, təhlükəsiz həyat yaşamaq üçün siz də müəyyən şeylər etməlisiniz. Əgər əmin-amanlıq şəraitində yaşamaq istəyir və gələcək nəsillərin də ədalətli, təhlükəsiz mühitdə böyüməsini istəyirsinizsə, əvvəla, siz ədalətli olub insanlara nümunə olmalısınız. Ayədə bildirilən **"ədalətlə əmr edən ümmət"**dən olmaq üçün sizin də fürsətiniz var. Unutmayın ki, **"... Allah ədalətli olanları sevir."** (Maidə surəsi, 42)

# ALLAH ƏDALƏTLİ OLMAĞI ƏMR EDİR

Əsil ədaləti Allah Quranda belə təsvir edir: insanlar arasında heç bir ayrı-seçkilik etmədən ədalətlə hökm vermək, insanların hüquqlarını qorumaq, zülmə səssiz qalmamaq, zalıma qarşı məzlumun tərəfində olmaq, ehtiyac içində olanlara yardım etmək. Bu ədalət bir qərar vermək lazım olduqda hər iki tərəfin də hüququnu qorumağı, hadisələri hərtərəfli dəyərləndirməyi, ön mühakiməsiz düşünməyi, bitərəflik, haqq, dürüstlük, mərhəmət və şəfqət tələb edir. Bunlardan biri əksik olduqda və ya üstün gəldikdə əsl ədaləti tətbiq etmək çətinləşir. Məsələn, hadisələri soyuqqanlılıqla dəyərləndirməyən, həyəcanlı və hisslərinə qapılan insan düzgün qərar verə bilməz, hisslərinin təsiri altında qalar. Halbuki ədalətlə hökm verən insan bütün şəxsi hiss və düşüncələrini bir kənara qoymalı, ondan yardım istəyən hər iki tərəfə qarşı ədalətlə davranmağı, hər cür şərtlər altında doğru olmağı, dürüstlükdən əl çəkməməyi Quran əxlaqı ölçüsündə özünə meyar etməlidir. Bu şəxs elə əxlaqda olmalıdır ki, öz mənfəətindən əvvəl qarşı tərəfi düşünməli, özünə zərər gəlsə belə, əgər qarşı tərəf haqlıdırsa, ədalətli olmalıdır.

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.** (Maidə surəsi, 8) ayəsində də bildirildiyi kimi, Allah insanın bütün əməllərini bilir. Uca Rəbbimiz Allahdan qorxan və axirət günündə haqq-hesaba çəkiləcəyini bilən şəxs Allahın razılığını qazanmaq üçün ədalətlə hökm verər. Çünki bilir ki, Allah bütün əməllərinə, söylədiyi hər sözə və ağlından keçirdiyi hər düşüncəyə görə onu axirət günü sorğu-sual edəcək və əməllərinin qarşılığını tam verəcək.

Məhz buna görə insan Allahın rizasını qazanmaq, cəhənnəm əzabından xilas olmaq və Allahın sonsuz nemətlərinə qovuşmaq üçün Quran əxlaqı ilə tam yaşamalıdır. Bu əxlaqa yiyələnmək üçün hər kəs şəxsən cəhd etməli, nəfsinin bütün istəklərini və şəxsi mənfəətlərini bir kənara qoyub ədaləti, mərhəməti, sevgini, şəfqəti və sülhü özünə yol seçməlidir. Allah Quranda əsil ədaləti təfərrüatı ilə təsvir edir, hər cür anlaşılmazlığın ədalətlə həll olunacağını bildirir. Ədalətli rəhbərlərdən və ədalətli insanlardan ibarət cəmiyyətdə hər cür anlaşılmazlıq asanlıqla həll olunar. Quranda ədalət tam təsvir edilmiş, iman gətirənlərə qarşılaşdıqları hadisələrdə necə ədalətlə davranacaqları bildirilmişdir. Bu, iman gətirənlər üçün çox böyük asanlıq və Allahdan rəhmətdir. Bu səbəbdən də iman gətirənlər həm Allahın razılığını qazanmaq, həm də rahat, təhlükəsiz, əmin-amanlıq içində yaşamaq üçün insanlar arasında ədaləti tam tətbiq etməklə məsuldurlar.

**Ədalət bütün insanlar arasında, dil, irq, etnik mənşə nəzərə alınmadan bərabər tətbiq edilməlidir**

Dünyada baş verən hadisələri təhlil etdikdə ədalətin yer, zaman və şəxslərə görə fərqli şəkildə tətbiq olunduğuna şahid oluruq. Məsələn, bəzi ölkələrdə insanların dərisinin rəngi ədaləti tətbiq edən insanların qərarına təsir edir. Ağdərili insanla qaradərili insan eyni vəziyyətdə olduqda onlar haqqında ədalətlə hökm verilmir. Bəzi ölkələrdə irq çox böyük əhəmiyyət daşıyır. Keçən əsrdə Hitlerin ari irqi digər irqlərdən üstün görüb milyonlarla insanı məhz irqinə görə məhv etmək istəməsi buna nümunədir. Dövrümüzdə də milliyyətinə, dərisinin rənginə görə zalım, ədalətsiz rəftarla qarşılaşan insanlar var. ABŞ-da və Cənubi Afrikada illərlə qaradərili irqlə ikinci sinif insan kimi rəftar edilmiş, çoxlu sayda Asiya və Afrika ölkəsində məhz irq fərqinə görə şiddətli münaqişələr baş vermişdir.

Halbuki Quran ayələrində bildirildiyinə görə müxtəlif xalqların və qəbilələrin yaradılmasının hikmətlərindən biri insanların bir-birləri ilə tanış olmasıdır. Hamısı Allahın qulu olan müxtəlif millətlər və qəbilələr bir-birləri ilə tanış olmalı, yəni bir-birlərinin mədəniyyətini, dilini, adət-ənənələrini, bacarıqlarını öyrənməlidirlər. Müxtəlif irqlərin və millətlərin olmasının məqsədi münaqişə və müharibə deyil, mədəni zənginlikdir. Bu müxtəliflik Allahın yaratmasının gözəlliyidir. Bir insanın uzun, birinin qısa boylu olması, bir adamın dərisinin ağ, digərinin sarı rəngdə olması ona hər hansı üstünlük qazandırmadığı kimi, qüsur da deyil. Bunların hər biri Allahın təqdiri ilə və çox böyük hikmətlərlə yaradılmışdır. Ancaq bu fərqlərin Allah qatında heç bir əhəmiyyəti yoxdur. İman gətirən insan yeganə üstünlüyün təqva ilə, yəni Allah qorxusu və Allaha imanla olduğunu yaxşı bilir. Allah Hucurat surəsində bu həqiqəti belə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Ayədə də bildirildiyi kimi, Allahın əmr etdiyi ədalət anlayışı heç bir fərq qoymadan hər insana bərabər, tolerant və sülhsevər münasibət tələb edir.

Peyğəmbərimiz hz. Muhəmməd (səv) də yaşadığı dövrdə müxtəlif irqə mənsub xalqlarla ədalətlə davranmışdır. İnsanlara irqinə görə müxtəlif cür münasibət göstərməyi tənqid etmiş, bu cür əxlaqı "cahiliyyə əxlaqı" adlandırmışdır.

Peyğəmbərimiz (səv) qövmünə cahiliyyə cəmiyyətində insanların rənglərinə və milliyyətlərinə görə bir-birlərinə düşmənçilik bəslədiyini xatırlatmış və müsəlmanları Quranda çirkin göstərilən bu davranışdan çəkindirmişdir. 1400 il əvvəl Peyğəmbərimiz hz. Muhəmməd (səv) vasitəsilə insanlara rəhmət olaraq göndərilən Quranda bu bəsit fikirlər aradan qaldırılmış, rənglərinə, milliyyətlərinə, dillərinə baxmayaraq, bütün insanların bərabər olduğu bildirilmişdir. Peyğəmbərimiz (səv) cahiliyyə inancındakı insanları milliyyətinə və

rənginə görə dəyərləndirmə anlayışının bəsitliyi üzərində dayanmış və Vida xütbəsində ərəb xalqına belə demişdir:

"Əsil-nəcabətlə öyünmək olmaz. Ərəblər ərəb olduqlarına görə əcəmlərdən, əcəmlər də əcəm olduqlarına görə ərəblərdən üstün hesab edilmirlər. Çünki Allah qatında ən üstün olanınız Ona qarşı çıxmaqdan ən çox çəkinəninizdir (ən təqvalınızdır)."1

Peyğəmbərimiz (səv) bu sözləri ilə insanlara bir daha Hucurat surəsinin 13-cü ayəsində bildirildiyi kimi, insanlar arasındakı üstünlüyün sadəcə təqva ilə olduğunu xatırlatmışdır. İslam Peyğəmbərimizin (səv) də bildirdiyi kimi, bəsit düşüncə tərzlərini tamamilə aradan qaldırır. İslam əxlaqı ilə yaşanan mühitdə bir insan nə yəhudi, nə xristian, nə zənci, nə də qızıldərili olduğuna görə təqsirləndirilə bilməz, fərqli rəftarla qarşılaşmaz, alçaldılmaz. Bu, Allahın təqdiridir və Allah hər insanı ən gözəl şəkildə yaratmış, ən gözəl surəti vermişdir. İnsanlar hər zaman hər kəsə qarşı ədalətli, hörmətcil, mehriban, mərhəmətli, sülhsevər və sevgi dolu olmaqla məsuldurlar.

Bununla yanaşı, insanın yoxsul və ya varlı olması da möminin ədalətlə hökm verməsinə mane olmaz, qərarlarına təsir etməz. Bir insanın sadəcə maddi güc sahibi olduğu üçün digər insanlara haqsızlıq etməsi, zülm etməsi və buna görə cəzalandırılmaması böyük haqsızlıqdır. Halbuki dövrümüzdə bəzi dünya dövlətlərinə baxdıqda varlıları qoruyan, yoxsullarla isə ikinci sinif insan kimi rəftar edən düşüncə tərzinin hakim olduğunu görürük. Ona görə bəzi varlılar ədalətdən daha çox faydalanır, yoxsullardan üstün rəftar görməyi özlərinin haqqı olduğunu hesab edirlər. Habelə ədalət mexanizmlərini öz mənfəətləri üçün yönləndirməyə çalışırlar. Bu anlayış haqq dinə uyğun yaşamayan ölkələrdə böyük ədalətsizliklərə səbəb olur, insanların bir hissəsi səfalətlə üzləşərkən digərləri zənginliklərinə görə əldə etdikləri üstünlüklərdən faydalanırlar.

Ancaq bütün bu yanlışlara baxmayaraq, ədaləti dünyaya hakim etmək, insanlar arasında ictimai sülhün bərqərar olduğu həyat qurmaq mümkündür. Bu, Quran əxlaqının hakim edilməsi və insanların Quran əxlaqına məsuliyyətli yanaşmaları ilə mümkündür. Çünki Allah bir ayədə belə əmr edir:

**… Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan uzaqlaşmayın!.. (Nisa surəsi, 135)**

Allahın bu əmrinə uyğun olaraq Allahdan qorxan mömin qarşısındakı insanın yoxsul və ya varlı olmasından asılı olmayaraq mütləq hər şərtdə ədalətlə hökm verər, insanlara maddi vəziyyətlərinə görə müxtəlif münasibət göstərməz. Çünki zənginlik və ya yoxsulluq Allahın insanları sınamaq üçün yaratdığı müvəqqəti dünya şərtləridir. İnsan öldükdə dünyadakı var-dövlətinin və mülkünün heç bir dəyəri qalmayacaq, ancaq təqvasına görə mükafat alacaq. Allahın razı olduğu davranış isə doğruluq və ədalətdir. Bu gözəl əxlaqın qarşılığı isə tükənməz axirət mükafatlarıdır.

## Allah yetimlərlə ədalətlə davranmağı qəti əmr etmişdir

Quranda ədalətin qorunmasına dair verilən nümunələrdən biri də yetimlərin malları ilə bağlıdır. Ayələrdə yetimlər öz mallarını sərbəst idarə edə biləcək yaşa çatana qədər ədalətlə onların malından istifadə etmək əmr edilmişdir. Ənam surəsində belə buyurulur:

**Yetim həddi-buluğa çatana qədər, – xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin... (Ənam surəsi, 152)**

Allah başqa ayələrində də yetimlər həddi-buluğa çatmadan onların mallarını tələm-tələsik sərf etməməyi xatırladır, insanları tam ədalətlə davranmağa çağırır. Bu barədəki ayələrdən bəziləri aşağıdakılardır:

**Yetimlərin mallarını özlərinə verin və pisi yaxşı ilə dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin! Həqiqətən, bu, böyük günahdır. (Nisa surəsi, 2)**

**Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər! (Nisa surəsi, 6)**

**Yaxşı niyyət istisna olmaqla, yetimin malına həddi-buluğa çatana qədər yaxın düşməyin. Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində cavabdehdir. (İsra surəsi, 34)**

Ayələrdə bildirilən əxlaqa zidd hərəkət edərək yetimlərin mallarını zülmlə sərf edənlər və ədalətsizliklə xərcləyənlər sonsuz əzabla qorxudulurlar. Allah: **“Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər”** (Nisa surəsi, 10) ayəsi ilə insanları ədalətsiz davranmaqdan çəkindirir. Bu nümunədən də göründüyü kimi, Quranda bildirilən ədalət insanın bütün həyatını əhatə edir. İnsanın ədalətli davranmaq üçün diqqətli olması onun əbədi həyatında cənnətə və ya cəhənnəmə getməsinə təsir edir.

## Veriləcək qərar öz yaxınları ilə əlaqədar olsa da, mömin ədalətlə hökm verməlidir

Ədalət deyiləndə, bəlkə də, ədalətli davranmağın çox asan olduğunu, bütün qərarlarınızda həmişə ədalətli davrandığınızı düşünə bilərsiniz. Ancaq verəcəyiniz ədalətli

qərar nəticəsində bir yaxınınız, ananız, atanız və ya qohumunuz fiziki və ya mənəvi sıxıntıya düşsə, yenə də bu qərarı asanlıqla verərsinizmi? Sevdiyiniz, ancaq doğru yoldan çıxmış bir şəxs barəsində qərar verərkən tərəfsiz, dürüst ola bilərsinizmi?

Bu sual qarşısında bir çox insan tərəddüd edir. Həqiqətən də, belə vəziyyətdə ədalətli olmaq bəzi insanlara çətin gələ bilər. Sevdiyi insana başqa birinə nisbətən daha çox tolerant davrana bilər, bir anlıq bəzi həqiqətləri görməzliyə vura bilər. Ancaq insanın hər şərtdə və hər vəziyyətdə ədalətlə davranmaqdan çəkinməməsi, Allahın **"Ey iman gətirənlər! Sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun!.."** (Nisa surəsi, 135) ayəsinə ciddi əməl etməsi əsasdır. Hər şərtdə doğruların tərəfində olmaq insanlarda etibar hissi yaradır. Sadəcə qan qohumluğu və ya dostluq əlaqəsi olduğuna görə yaxınlarını qorumaq ədalət istəyən insanları narahat edəcək və etibarsızlıq yaradacaq.

Ancaq Quranın hökmlərinə əsasən hərəkət edən insan Allahın "... **Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz!"** (Ənam surəsi, 152) şəklində bildirdiyi tövsiyələrinə əməl edər. Bu davranış onun Allaha güclü imanının və gözəl əxlaqının göstəricisidir.

Quranda bu barədə hz. Musanın (əs) həyatından nümunə verilir. Qasas surəsində belə bildirilir:

**O, şəhərə əhalisi xəbərsiz ikən daxil oldu və orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun tərəfdarlarından, o biri isə düşmənlərindən idi. Tərəfdarlarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onu vurub öldürdü və: "Bu, şeytan əməlindəndir. Həqiqətən, o, azdıran açıq-aydın bir düşməndir!"– dedi. (Qasas surəsi, 15)**

Bu hadisədə hz. Musa (əs) öz tərəfdarlarından birinin davasına şahid olur. Musa Peyğəmbər (əs) yaxınlarından olan bu adama tərəf çıxır və onunla birlikdə digər adama qarşı vuruşur. Bu davada qarşı tərəfə yumruq ataraq onu istəmədən öldürür. Ancaq sonra çox böyük səhv etdiyini anlayır. Bu, iman gətirən insanın ədalət anlayışını göstərən çox mühüm nümunədir. Çünki kimin haqlı, kimin haqsız olduğunu araşdırmadan, sadəcə öz yaxını, qohumu və ya dostu olduğu üçün bir nəfəri dəstəkləmək Allahın bəyənmədiyi əxlaqdır. Müqəddəs peyğəmbər olan hz. Musa (əs) da bu həqiqəti dərhal dərk etmiş, ayədə xəbər verildiyi kimi, etdiyi hərəkəti "şeytanın əməli" adlandırmışdır.

Hz. Musanın (əs) "şeytan əməli" adlandırdığı təfriqəçilik tarix boyu tökülən qanların ən böyük səbəblərindəndir. İnsanların ədalətə və haqqa görə deyil, öz ailəsini, nəslini, qövmünü, tərəfdarlarını və ya millətini haqlı çıxarmaq cəhdləri münaqişə və müharibələrin səbəbi olmuşdur.

Buna qarşı mömin hz. Musanın (əs) həyatından Quranda verilən nümunəyə əsasən davranmalıdır. Hz. Musa (əs) şeytanın insana verdiyi pis fikrin zülm olduğunu vicdanı ilə

dərhal anlamış, tövbə edib Allaha sığınmışdır. Qissənin davamında hz. Musanın (əs) bu nümunəvi, vicdanlı davranışı belə təsvir edilir:

**Dedi: "Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!" O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir. Dedi: "Ey Rəbbim! Mənə nemət bəxş etdiyin üçün mən heç vaxt günahkarlara arxa olmayacağam!" (Qasas surəsi, 16-17)**

## Bir camaata qarşı bəslənən kin möminləri ədalətdən çəkindirməz

Bir insanın ədalətli qərar verməsinin, ağıllı düşünməsinin və ağıllı davranmasının qarşısını alan amillərdən biri qarşısındakı insana və ya camaata qəzəbi, kinidir. Əslində, bu, dövrümüzün cahiliyyə cəmiyyətində çox geniş yayılmış düşüncə tərzidir. Bəzi insanlar düşmənçilik etdikləri insanlara qarşı asanlıqla hər cür ədalətsizlik, əxlaqsızlıq edirlər. Bəzən bir adamın üstünə törətmədiyi əmələ görə böhtan atır, təqsirsiz olduğunu bilsələr belə, onun əleyhinə şahidlik edirlər. Bu cür düşmənçiliyə görə günahsız yerə bir çox insan əziyyət çəkir. Bəzi insanlar doğrunu bildiklərinə baxmayaraq, düşmən hesab etdikləri insanların lehinə şahidlik etmir, əllərində bu insanın təqsirsizliyini sübut edən dəlil olsa belə, üzə çıxarmırlar. Hətta bu insanın başına böyük bəla gəlməsi, haqsızlıqla qarşılaşması və ya zülm görməsi onları sevindirir. Ən böyük narahatlıqları isə ədalətin üstün gəlməsi və bu insanın təqsirsizliyinin ortaya çıxmasıdır.

Elə buna görə də cahiliyyə cəmiyyətində insanlar bir-birlərinə güvənmirlər. Hər kəs qarşısındakı insandan pislik görəcək deyə narahatlıqla yaşayır. Bir-birlərinə olan etibarlarını itirmələri nəticəsində isə yardımlaşma, şəfqət, mərhəmət, qardaşlıq kimi insanpərvər xüsusiyyətlərini tədricən itirir, bir-birlərinə nifrət edirlər.

Halbuki iman gətirən insanın bir camaata və ya bir şəxsə hiss etdiyi duyğular onun verdiyi qərarlarına qətiyyən təsir etməz. Qarşısındakı şəxs nə qədər pis əxlaqlı olsa da, nə qədər düşməncəsinə davransa da, iman gətirən insan bir qərar verdikdə bütün hislərini bir kənara qoyub ədalətlə davranar və qərar verər, ədalətli olmağı tövsiyə edər. O şəxsə qarşı hisləri ağlına və vicdanına üstün gəlməz. Vicdanı ona həmişə Allahın əmrlərinə və tövsiyələrinə tabe olmağı, gözəl əxlaqdan əsla əl çəkməməyi deyir. Çünki bu, Allahın iman gətirənlərə Quranda bildirdiyi əmridir. Maidə surəsində belə bildirilir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Ayədə də bildirildiyi kimi, ədalətli davranmaq təqvaya uyğun hərəkətdir. İman gətirən insan ancaq ədalətlə davrandığı təqdirdə Allahın razılığını qazanacağını bilir. Gözəl əxlaqına

şahid olan hər kəs bu insana güvənir, yanında rahat olur, hər cür məsuliyyəti və vəzifəni rahatlıqla ona həvalə edir. Belə insanlar hətta düşmənləri tərəfindən də hörmətlə qarşılanırlar və onların bu davranışı bir çox inkarçı insanların iman gətirmələrinə səbəb olur. Buna ən gözəl nümunə hz. Muhəmməddir (səv). Peyğəmbərimizin (səv) heç bir fərq qoymadan, hər kəsə sevgi və mərhəmətlə davranması həmin dövrdə yaşayan xristian, yəhudi, dinsiz, müşrik kimi hər zümrədən olan insanın qəlbinin İslama isinməsinə səbəb olmuşdur.

Dövrümüzdə yaşayan möminlər üçün də ən gözəl nümunə Peyğəmbərimizin (səv) Quranda bildirilən davranışlarıdır. Dövrümüzdə də eynilə Əsri-səadət dövründə olduğu kimi, xristian, yəhudi, buddist, hindu, ateist, dinsiz, müşrik, bütpərəst kimi müxtəlif inanclara malik insan qrupları birlikdə yaşayır. Bir müsəlman qarşısındakı insanın inancından asılı olmayaraq anlayışlı olmaqla, bağışlamaqla, ədalətli və insanpərvər davranmaqla məsuldur. Çünki hər insanın iman gətirmə, müsəlman olma, Allaha təslim olma ehtimalı var. İman gətirmiş insan bunu unutmamalıdır. İman gətirənlər Allahın dininə sülhlə, sevgi ilə dəvət etməklə məsuldurlar. Bu doğruları tətbiq edib-etməmək, iman gətirib-gətirməmək qarşı tərəfə aiddir. Bir insanı iman gətirmək üçün məcbur etmək, bəzi şeyləri zorla qəbul etdirməyə çalışmaq Quran əxlaqına ziddir. Allah bunu Quranda belə bildirmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

## PEYĞƏMBƏRLƏR ƏDALƏT GƏTİRİBLƏR

İnsanların böyük əksəriyyətinin fikrincə, kitabın birinci hissəsində təsvir etdiyimiz ədalətin hakim olduğu mühit sadəcə kitablarda təsvir edilən və insanların xəyallarını bəzəyən utopiyadır. Bu düşüncəyə görə əsil ədalətin hakim olduğu cəmiyyətin olması əsla mümkün deyil. Halbuki bəşəriyyət tarixi boyu Quranda əmr edilən ədalətin hökm sürdüyü, insanlar arasında əmin-amanlıq, sevgi və təhlükəsizliyin olduğu dövrlər olmuşdur.

Allahın insanları xəbərdar etmək üçün göndərdiyi elçilərin yaşadığı cəmiyyətdə tolerantlıq, sülh və ədalət hökm sürmüşdür. Allahın **"Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz."** (Yunus surəsi, 47) ayəsində bildirdiyi kimi, bu dövrlərdə heç kimə zülm edilməmiş, insanlar arasında ədalət hakim olmuşdur.

Allah bütün elçilərinə insanlar arasında ədalətlə hökm verməyi əmr etmişdir. Hz. İsaya (əs), hz. Musaya (əs), hz. Davuda (əs) nazil edilən kitablarda, həmçinin hz. Muhəmmədə (səv) nazil edilən Quranda da insanlar gözəl əxlaqa, sevgiyə, sülhə və əmin-amanlığa dəvət ediliblər. Allah **"Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar..."** (Hədid surəsi, 25) ayəsi ilə elçilərin göndərilmə səbəblərindən birinin ədaləti bərqərar etmək olduğunu bildirir.

Quranda insanlar arasında ədalətlə hökm verməsi ilə nümunə göstərilən peyğəmbərlərdən biri hz. Davuddur (əs). Hz. Davudun (əs) yanına aralarında anlaşılmazlıq olan iki mübahisəçi gəlmiş və ondan aralarında haqq ilə hökm verməsini istəmişdirlər:

**Çəkişənlərin xəbəri sənə gəlib çatdımı? O zaman onlar divarı aşıb məbədə girdilər. Onlar Davudun yanına daxil olduqda (Davud) onlardan qorxdu. Onlar dedilər: "Qorxma! Biz iki iddiaçıyıq. Birimiz digərinin haqqını tapdalamışdır. Aramızda ədalətlə hökm ver, haqsızlıq etmə və bizə düz yolu göstər! Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum vardır. (Bununla belə:) "Onu mənə ver!"– dedi və mübahisədə mənə üstün gəldi". (Sad surəsi, 21-23)**

Ayədə də bildirildiyi kimi, iki mübahisəçi Allahın elçisindən aralarında hökm verərkən haqsızlıq etməməyi və onlara düz yolu göstərməyi istəmişdir. Onun ədalətlə qərar verəcəyinə güvənmiş və qərarına təslim olmuşdurlar. Ayədə xəbər verildiyi üzrə, hz. Davudun (əs) cavabı belə olmuşdur:

**(Davud) dedi: "O sənin qoyununu öz qoyunlarına qatmaq istəməklə sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!"... (Sad surəsi, 24)**

Hz. Davudun (əs) bu qərarı iman gətirənlər üçün gözəl örnəkdir. Çünki Davud peyğəmbər (əs) güclünün deyil, haqqın və doğrunun tərəfində olmuş, ədalətlə hökm vermişdir. Allah həmin surənin 25-ci ayəsində hz. Davudun (əs) gözəl əxlaqını **"...Həqiqətən, o Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır."** deyə tərifləmiş, gözəl məkanla müjdələmişdir. 26-cı ayədə isə Allah hz. Davuda (əs) **"Ey Davud! Biz səni yer üzündə xəlifə təyin etdik. Elə isə insanlar arasında ədalətlə hökm ver, nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar. Həqiqətən, Allahın yolundan azanları Hesablaşma gününü unutduqları üçün şiddətli bir əzab gözləyir"** hökmü ilə ədalətin əhəmiyyətini bildirir.

Mədyən xalqına göndərilən hz. Şueybin (əs) qövmü də ticarətdə ədalətsiz davranırdı. Çəkini və tərəzini tam tutmur, əşyaların dəyərini əskildir, insanları aldadırdılar. Hz. Şueyb (əs) qövmünə bu ədalətsiz davranışlarına görə xəbərdarlıq etmiş, onları ədalətə dəvət etmişdir. Ayələrdə belə bildirilir:

**Mədyən qövmünə də qardaşları Şueybi (göndərdik). O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əskik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir. (Əraf surəsi, 85)**

Başqa bir ayədə isə hz. Şueyb (əs) qövmünə Allah rizası üçün əldə edilən halal qazancın onlar üçün daha xeyirli olduğunu xatırlatmış, ədalətlə davranmağı demişdir:

**Ey qövmüm! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əskik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin! Əgər möminsinizsə, Allahın (halal olaraq) verdiyi mənfəət sizin üçün daha xeyirlidir. Mən də sizə nəzarətçi deyiləm!" (Hud surəsi, 85-86)**

Quranda hz. Musanın (əs), hz. İsanın (əs), hz. Yusufun (əs) və digər peyğəmbərlərin ədalətli davranışlarına dair çoxlu nümunə verilmiş, onların göndərildikləri qövmləri gözəl əxlaqa dəvət etmələri ətraflı izah edilmişdir.

Peyğəmbərimiz hz. Muhəmməd (səv) də bütün həyatı boyu Allahın Quranda "**...Allah şahidləri kimi ədaləti qoruyun...**" (Nisa surəsi, 135) əmrinə uyğun olaraq göndərildiyi qövmdə ədaləti tam tətbiq etmişdir. Onun ədaləti tətbiq etməkdə dəqiqliyi və gözəl əxlaqı insanların ona etibarının qat-qat artmasına və Allahın dininə bağlanmalarına səbəb olmuşdur. Hətta Quranın nazil edildiyi ilk illərdə bir çox tanınmış inkarçılar Peyğəmbərimizin (səv) gözəl əxlaqı və ədalətli qərarlarına görə səmimi qəlbdən ona təslim olub İslamı qəbul etmişdirlər.

Peyğəmbərimizin (səv) həyatında bu cür bir çox hadisə baş vermişdir. Bu hadisələrin böyük hissəsi də istər Peyğəmbərimizin (səv) hədislərində, istərsə də İslam tarixində bildirilərək bizə gəlib çatmışdır. Peyğəmbərimiz (səv) ədalətli, mehriban, mərhəmətli, şəfqətli davranışı ilə hər dövrdə onun ardınca gedən müsəlmanlar üçün gözəl nümunədir. Onun hər rəftarında, hər sözündə, hər icraatında iman gətirənlər üçün hikmətlər var. Allah Peyğəmbərimizin (səv) üstün əxlaqını və müsəlmanlara sevgisini bir ayədə belə bildirmişdir:

**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. (Tövbə surəsi, 128)**

### Hz. Muhəmmədin (səv) bütün bəşəriyyətə nümunə olan həyatı

Əvvəlki səhifələrdə bildirdiyimiz kimi, Allah insanlara xəbərdar edən və qorxudan kimi göndərdiyi elçilərinə insanlar arasında ədaləti bərqərar etməyi əmr etmişdir. Son peyğəmbər olan hz. Muhəmməd (səv) də ona vəhy gəldiyi Məkkədə İslam dinini ədalətlə yaymağa başlamışdır.

Həmin dövrdə Ərəbistanda, xüsusilə də Məkkənin ictimai sistemində çoxlu problemlər var idi. Cahiliyyə dövrü adlandırılan İslamdan əvvəlki bu dövrdə millətlər və dinlər arasında ciddi ayrı-seçkilik və bu ayrı-seçkilikdən qaynaqlanan narazılıqlar, müxtəlif dinlərə mənsub qövmlər arasında qeyri-tolerant münasibət, qəbilələr arası münaqişələr, ədalətsiz iqtisadi nizam, soyğunlar, varlılar və kasıblar arasında böyük uçurumlar və daha bir çox ədalətsiz icraatlar mövcud idi. Ədalət tətbiq olunmur, zəiflər gücü və pulu olanlar tərəfindən əzilir,

insanlara milliyyətləri, dinləri və dillərinə görə zülm edilirdi. İnsanlar bir qarın yemək üçün ağır şəraitdə işlədilir, əziyyət görürdülər.

Ticarət həyatında da faiz sisteminin gətirdiyi ağır yük altında gücü az olan məhv olur, varlı isə kasıbları hədsiz istismar edirdi. Hətta bu əxlaqsızlıqlardan bəziləri ənənəyə çevrilmişdi. Məsələn, ticarət karvanlarına basqın edərək yolçuları soyan cahiliyyə dövrünün ərəbləri əldə etdikləri qənimətləri ucuz qiymətə bazara çıxararaq qiymətlərə təsir edirdilər. Bəzən də əllərindəki malları qəsdən saxlayıb qara bazar yaradırdılar.

Quranda hz. Muhəmməddən (səv) əvvəl cəmiyyətin böyük əksəriyyətini təşkil edən bədəvilər haqqında çoxlu məlumat verilmişdir. Allah Quranda Ərəbistandakı bu cahil xalqın nə qədər anlamaz olduğunu **"Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər, Allahın Öz Elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyllidirlər. Allah Biləndir, Müdrikdir."** (Tövbə surəsi, 97) ayəsi ilə bildirmişdir.

Peyğəmbərimiz hz. Muhəmməd (səv) məhz bu cür cahil və anlamaz qövmə doğruları bildirmək və onları gözəl əxlaqa dəvət etmək üçün göndərilmişdir. Ancaq qarşısına çıxan heç bir çətinlik Allahın elçisini şövqdən salmamış, o "kafirlik və münafiqlik baxımından betər" olan bu qövmə Allahın dinini təbliğ etmiş, bütün həyatı ilə onlara gözəl nümunə olmuşdur. Aşağıdakı ayədə əmr edildiyi kimi, qövmünü daima ədalətli olmağa dəvət etmişdir:

**De: "Rəbbim ədalətli olmağı əmr etdi... (Əraf surəsi, 29)**

Peyğəmbərimiz hz. Muhəmmədin (səv) təbliği və gözəl əxlaqı bütün Ərəbistan yarımadasında çox böyük təsir yaratmış, onun dövründə insanlar dəstə-dəstə İslamı qəbul etmişdirlər. Quranda bildirilən ədalətli hökmlər, gözəl əxlaq, tolerantlıq və sülh sosial həyatda nizamı və asayişi bərpa etmişdir. Bunun ən əsas səbəblərindən biri də hz. Muhəmmədin (səv) **"...insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir..."** (Nisa surəsi, 58) ayəsinin tələbinə uyğun olaraq insanlar arasında ayrı-seçkilik etmədən ədaləti qorumasıdır.

Buna bir nümunə Peyğəmbərimizin (səv) Kitab əhlindən Nəcran xalqı ilə sazişidir. Növbəti səhifələrdə daha ətraflı təhlil edəcəyimiz bu mətn hz. Muhəmmədin (səv) o dövrdə bənzərsiz ədalət anlayışını insanlar arasında tətbiq etdiyini göstərir. Peyğəmbərimiz hz. Muhəmmədin (səv): *"Ədalət istəyən tapacaq, nə zalım, nə də məzlum olacaq..."*[1] sözü insanlar arasında necə ədalət tətbiq etdiyini ifadə edir. Bu bənzərsiz idarəçiliyinə görə Allahın elçisinə o dövrdə dərin etibar hissi yaranmış, hətta ən böyük düşmənləri belə onun dürüstlüyünü qəbul etməli olmuşdular.

Peyğəmbərimizin (səv) Allahın əmrlərini tam tətbiq etməsi ilə ortaya çıxan bu gözəl əxlaq nümunələri elçilərin sosial həyata gətirdiyi tolerant, sülhsevər əmin-amanlıq mühitini təsvir edir. Quran əxlaqı ilə tam yaşadıqda isə eynilə yuxarıdakı nümunədə gördüyümüz kimi, qardaşlıq və əmin-amanlıq mühiti formalaşacağı aydındır.

### Hz. Muhəmməd (səv) hər cür irqi ayrı-seçkiliyə qarşı çıxmışdır

Bu hissənin əvvəlindən bəri vurğuladığımız kimi, hz. Muhəmməd (səv) yaşadığı dövrdə bütün insanlar arasında ədaləti qorumuş, cahiliyyə inancında olan dil, irq, sosial status, etnik mənşə kimi məfhumlardan doğan üstünlük inancını təkzib etmişdir. Çünki insanlar arasında bu xüsusiyyətlərə görə ayrı-seçkilik etmək Quran əxlaqında ciddi tənqid olunur. Dövrümüzdəki ifadəsi ilə “irqi ayrı-seçkilik” Quranda qadağan olunan, ancaq cahiliyyədə geniş yayılmış fikirdir. Kitabın ilk hissəsində də izah etdiyimiz kimi, insanların müxtəlif irqlərə mənsub yaradılmalarının hikmətlərindən biri bir-birləri ilə tanış olmalarıdır. Bütün insanlar Allah qatında bərabərdir və yeganə üstünlük Allaha imandan və təqvadan qaynaqlanır.

Peyğəmbərimiz (səv) də irqi ayrı-seçkiliyin çox yayıldığı qövmünə insanlar arasındakı etnik fərqlərin heç bir əhəmiyyətinin olmadığını, hər kəsin Allah qatında bərabər olduğunu, Allaha səmimi qəlbdən iman gətirməyin əsas olduğunu bildirmişdir. Peyğəmbərimiz hz. Muhəmməd (səv) qövmünü Allaha iman gətirməyə dəvət edərkən insanlar arasında ayrı-seçkilik etməməyi əmr etmiş və belə demişdir:

*“Ey insanlar, diqqətli olun! Rəbbimiz birdir. Ərəbin ərəb olmayandan, ərəb olmayanın da ərəbdən, qaranın qırmızıdan, qırmızının qaradan təqvadan başqa heç bir üstünlüyü yoxdur. Şübhəsiz ki, Allah Təala qatında ən üstün olanınız Allah Təaladan ən çox qorxanınızdır.”*[2]

Peyğəmbərimiz (səv) Allahın insanları yoxdan yaratdığını, hər kəsin bərabər yaradıldığını və hər kəsin Allah qatında tək hesab verəcəyini, buna görə də insanların əsil-nəcabətinə baxaraq qiymət verməyin böyük səhv olduğunu açıqlamışdır.

Əbu Hüreyrədən (ra) rəvayətlə, Rəsululllah (səv) belə buyurmuşdur:

*“Ey insanlar! Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar mütləq və mütləq irqləri ilə öyünməkdən əl çəkməlidirlər.”*[3]

Başqa bir hədisində isə hz. Muhəmməd (səv) insanlar arasında təqvadan başqa üstünlük olmadığını belə bildirir:

*“Sizin bu əsil-nəcabətiniz kimsəyə qarşı üstünlük və təkəbbür göstərmək üçün səbəb deyildir. (Ey insanlar)! Hamınız Adəmin övladlarısınız. Hamınız bir qabın içindəki bir-birinə bənzər buğda dənələri kimisiniz... Halbuki kimsənin kimsədən, din və təqva istisna olmaqla, üstünlüyü yoxdur. İnsana pis olması üçün başqalarını tənqid etməsi, özündən aşağı görməsi, xəsis, bədxasiyyət, həddi aşmış olması kifayətdir.”*[4]

Peyğəmbərimiz (səv) bütün həyatı boyu insanlara cahil, azğın inanclarını bir kənara qoyub Quranda əmr edilən düşüncə tərzi ilə yaşamağı tövsiyə etmişdir. Quranda isə irqi ayrı-seçkilik təəssübkeşlik adlandırılmış, insanların bu yanlış əxlaqı tənqid edilmişdir. Bu barədə bir ayə belədir:

**Kafirlər öz ürəklərində cahiliyyət təkəbbürü təəssübünə qapıldıqları zaman Allah Peyğəmbərinə və möminlərə öz dərgahından arxayınlıq göndərmiş və onlara təqva**

**kəlməsini xas etmişdi. Onların bu sözə daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi biləndir! (Fəth surəsi, 26)**

Allahın yuxarıdakı ayəsində bildirilən dəvətini qəbul edən müsəlmanlar həm Peyğəmbərimiz (səv) dövründə, həm də ondan sonra gələn ədalətli rəhbərlərin dövründə sülh və əmin-amanlıq içində yaşayıblar.

**Peyğəmbərimizin (səv) dövründə
Kitab əhli  və müşriklərlə imzalanan sazişlər
cəmiyyətdə ədaləti bərqərar etmişdir**

Peyğəmbərimiz (səv) Məkkədən Mədinəyə hicrət etdikdən sonra müxtəlif insan qrupları ilə qarşılaşmışdır. O dövrdə Mədinədə böyük nüfuza malik olan yəhudilər, xristian qruplar və həmin vaxta qədər İslamı qəbul etməmiş, keçmiş dinlərinə davam edən müşriklər birlikdə yaşayırdılar. Hz. Muhəmməd (səv) belə bir mühitdə ictimai birliyi və sülhü təmin etmək üçün Mədinədəki kosmopolit strukturu sosial sövdələşmələrlə birləşdirmiş, yüzdən çox qrup ilə bəzən məktubla, bəzən də şəxsən özü danışaraq sazişlər bağlamış, onlarla uzlaşmaya getmişdir.[5] T.U. Arnold Peyğəmbərimizin (səv) qurduğu bu ictimai birliyin əhəmiyyətini belə ifadə edir:

"Əvvəllər heç bir əmrə qətiyyən itaət etməmiş o Ərəbistan birdən-birə siyasi birliyə çevrildi və o mütləq əmirə özünü təslim etdi. Yüzə yaxın kiçik sosial qrupdan ibarət və daima bir-birləri ilə qarşılıqlı düşmənçilik edən böyük-kiçik qəbilələrdən hz. Muhəmməd (səv) birlik qurdu."[6]

Quranda bir çox ayə ilə də bildirildiyi kimi, digər dinlərdən olan insanlarla dostluq içində yaşamaq İslam əxlaqına uyğundur. Allah ayədə müsəlmanlara hər müqəddəs kitaba inanmağı və digərlərinin inanclarına hörmət etməyi belə əmr edir:

**Buna görə də sən dəvət et və sənə əmr olunduğu kimi, düz yolla get. Onların nəfslərinin istəyinə uyma və de: "Mən Allahın nazil etdiyi Kitaba iman gətirdim. Mənə sizin aranızda ədalətli olmaq əmr edilmişdir. Allah bizim də Rəbbimiz, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda mübahisə ediləcək bir şey yoxdur. Allah hamımızı bir yerə toplayacaqdır. Dönüş də yalnız Onadır". (Şura surəsi, 15)**

Yuxarıdakı ayədə müsəlmanın digər dinlərdən olan insanlara münasibətinin necə olması bildirilir. Müsəlmanlar da peyğəmbər əxlaqını özlərinə nümunə götürərək bütün insanlarla ədalət və mərhəmətlə davranmaqla məsuldurlar. Bu şəxs yəhudi, xristian, müşrik, buddist və hətta ateist ola bilər. Nəyə və kimə inansa da, heç bir inancı olmasa da, Allahın əmr etdiyi ədalətli və dürüst rəftar mütləq hər kəsdə müsbət təsir oyadar, qəlbinin İslama isinməsinə vəsilə olar.

Peyğəmbərimizin (səv) Mədinəyə gəlib qardaşlığı və sevgini möhkəmləndirməsi sübut etmişdir ki, müxtəlif irqlərə, dinlərə və dillərə mənsub insanların birlikdə əmin-amanlıq içində yaşaması mümkündür. Onun sülhə və sevgiyə dəvət etməsinin ən böyük dəlillərindən biri özünün yazdırdığı sülh sazişidir.[7] Hz. Muhəmməd (səv) Məkkəni fəth etdikdən sonra əvvəllər müsəlmanlara işgəncə vermiş müşrikləri belə sərbəst buraxmış, onlara böyük mərhəmət göstərmişdir. Peyğəmbərimiz hz. Muhəmmədin (səv) bu üstün əxlaqı əvvəlki ərəb cəmiyyətində bənzəri görülməmiş hal idi və insanlar arasında rəğbətlə qarşılanmışdı.

Həmin dövrdə fəth edilən əcnəbi ölkələrdə də əsil ədalətin tətbiq edilməsində hz. Muhəmməd (səv) bütün müsəlmanlara nümunə olmuşdur. Peyğəmbərimiz (səv) fəth edilən ölkələrin yerli xalqlarına qarşı Quranda bildirilən ədaləti tətbiq etmiş, onlarla hər iki tərəfin razı qaldığı və heç kimin inciməyəcəyi sazişlər imzalamışdır. Bu səbəbdən də hansı dinə və ya millətə mənsub olsa da, fəth edilən ölkələrin xalqları İslamın gətirdiyi ədalətdən həmişə razı qalıblar. Mübarək Peyğəmbərimiz hz. Muhəmməd (səv) və yanındakı səhabələr **"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər."** (Əraf surəsi, 181) ayəsində bəhs edildiyi kimi, insanlar arasında ədaləti tətbiq edən ümmət olublar.

Ərəbistan yarımadasının cənubundakı xristian nəcran xalqı ilə bağlanan saziş də Peyğəmbərimizin (səv) mərhəmətinin və ədalətinin ən gözəl nümunələrindən birini göstərir. Sazişin maddələrindən biri belədir:

*"Nəcranlıların və məiyyətinin canları, malları, dinləri, var-dövlətləri, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Allahın Peyğəmbərinin himayəsi altına alınacaqdır."*[8]

Peyğəmbərimiz (səv) bu və bənzər sazişlərlə aşağıdakı ayənin cəmiyyətdə təcəlli etməsinə və Kitab əhlinin də müsəlmanlarla birlikdə sülh və əmin-amanlıq içində yaşamasına vəsilə olmuşdur:

**Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

Yuxarıda verilən nümunələr Peyğəmbərimizin (səv) ədalətli icraatlarından sadəcə bəziləridir. Ancaq bu sazişlərdən ən əsası Peyğəmbərimizin (səv) xristian, yəhudi və müşrik qəbilələrlə imzaladığı Mədinə sazişidir. Bu saziş dövrümüzdə də tez-tez əsərlərin mövzusunu təşkil edir, üzərində geniş miqyaslı tədqiqatlar aparılır.

Mədinə vəsiqəsi təqribən 1400 il əvvəl 622-ci ildə müxtəlif inanclara malik xalqların tələblərinə cavab verməк məqsədilə hz. Muhəmmədin (səv) rəhbərliyi altında qələmə alınıb və yazılı hüquqi saziş kimi tarixə düşüb. Nəticədə də 120 il boyu bir-birinə qarşı düşmənçilik bəsləyən müxtəlif dinlərə və millətlərə mənsub qəbilələr bir sazişdə birləşiblər. Hz. Muhəmməd (səv) bu saziş vasitəsilə hər fürsətdə bir-birlərinə hücum edən, düşmənçilik bəsləyən və uzlaşa bilməyən xalqların arasındakı münaqişələrə son qoyulmasının, onların sülh şəraitində birlikdə yaşamasının mümkün olduğunu göstərdi.

Mədinə sazişinə görə hər kəs heç bir təzyiq olmadan istədiyi dini, inancı, siyasi və ya fəlsəfi seçimini etməkdə azaddır. Hər kəs özü kimi düşünən insanlarla qrup yarada bilər. Öz hüququnu tətbiq etməkdə azaddır. Ancaq cinayət törədən şəxs heç kim tərəfindən qorunmayacaq. Sazişi imzalayan tərəflər bir-birlərinə yardım edəcək, bir-birlərinə dəstək olacaq və Peyğəmbərimiz hz. Muhəmmədin (səv) himayəsi altında olacaqlar. Tərəflər arasındakı anlaşmazlıqlar Allahın Rəsuluna bildiriləcəkdir.

Peyğəmbərimizin (səv) hazırlatdığı bu saziş mərhələli şəkildə 622-ci ildən 632-ci ilə qədər tətbiq edilmişdir. Bu sazişlə qan və qohumluq əlaqələrinə əsaslanan qəbilə tərzi təşkilatlanma aradan qaldırılmış, coğrafi, mədəni və etnik mənşəyi bir-birindən tamamilə fərqli insanlar birləşmişdirlər. Mədinə sazişi ilə geniş miqyasda din və inanc azadlığı təmin edimişdir. Bu azadlığı ifadə edən maddə aşağıdakıdır:

"Bəni-əvf yəhudiləri möminlərlə bərabər eyni ümmətdirlər. Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir."[9]

Bu sazişlə yəhudi və müşriklərə üzvlük hüququ verilmişdi. On altıncı maddədə isə "Bizə tabe olan yəhudilər heç bir haqsızlığa məruz qalmadan və düşmənləri ilə də yardımlaşmadan yardım və dəstəyimizə haqq qazanacaqlar"[10], – deyilir. Peyğəmbərimizin (səv) bu anlayışına sadiq qalan səhabələr də ondan sonrakı dövrlərdə bərbəri, buddist, brahman və digərlərinə bu hüququ vermişdirlər.[11] Bu dövrdə anlaşılmazlıqlar asanlıqla həll edilmiş, hər kəs bir-birinin inancına hörmət etmiş, sülh və ədalət çox uzun müddət davam etmişdir.

Peyğəmbərimiz (səv) Kitab əhli ilə olduğu kimi, müşriklərlə də ictimai nizamı bərpa etmək üçün bəzi sazişlər bağlamışdır. Müşriklərlə həmişə ədalətlə davranmış, onların müdafiə və himayə tələblərini qəbul etmişdir.

Bu himayə tələbi hər hansı haqsızlığa və ya hücuma məruz qalma ehtimalına qarşı Peyğəmbərin (səv) qorumasını tələb etmək, onun yanına sığınmaq mənasını daşıyırdı. Həyatı boyu Peyğəmbərimizdən (səv) bir çox qeyri-müsəlman və müşrik himayə tələb etmiş, o da bu insanları himayəsinə alaraq təhlükəsizliklərini təmin etmişdir. Allah Tövbə surəsində müşriklər sığınma haqqı tələb etdikdə bu tələblərinin qəbul edilməsini bildirmişdir. Ayələrdə belə buyurulur:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır... (Tövbə surəsi, 6)**

**... Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir. (Tövbə surəsi, 7)**

Ayədən də göründüyü kimi, Allah müşriklərlə ədalətli davranmağı əmr etmiş, əgər himayə edilmək istəsələr, möminləri onların təhlükəsizliklərini təmin etməkdən məsul etmişdir.

**Peyğəmbərimizin (səv) dövründə**
**Kitab əhli**

Əvvəlki səhifələrdə verilən nümunələrdən də göründüyü kimi, Peyğəmbərimizin (səv) Kitab əhli ilə münasibətlərinə baxdıqda onun İslamın yayıldığı ilk illərdə xristianlarla əlaqə qurduğunu anlayırıq. Müsəlmanlar Məkkədə müşriklər tərəfindən zülmə məruz qalarkən Peyğəmbərimiz (səv) onlara xristianların yaşadığı Həbəşistana hicrət etməyi demişdir. Bu ölkənin xristian hökmdarı Nəcaşi isə ölkəsinə hicrət edən müsəlmanları qəbul etmiş və çəkdikləri zülmdən onları qorumuşdur.

Quranda da hz. İsanın (əs) yanındakı həvarilər Allaha və Elçisinə bağlılıqları ilə müsəlmanlara nümunə göstərilmişdir. İlk müsəlmanlar ilə ilk xristianlar arasında böyük bənzərliklər var. İlk iman gətirən insanlar bir çox sıxıntı və işgəncəyə məruz qalmalarına baxmayaraq, elçilərə bağlılıqlarını qorumuşdurlar. Quranda hz. İsanın (əs) dövründəki ilk xristianların səmimi iman əhli, Allaha təslim olmuş müsəlmanlar olduğu belə bildirilir:

**İsa onlardakı küfrü hiss etdikdə dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! (Ali İmran surəsi, 52)**

**Bir zaman Mən həvarilərə: "Mənə və elçimə iman gətirin!" (–deyə) vəhy etmişdim. Onlar da: "İman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq!"– demişdilər. (Maidə surəsi, 111)**

Peyğəmbərimizin (səv) yəhudi qəbilələrinə mərhəmətli münasibəti də iman gətirənlər üçün gözəl nümunədir. Mədinədəki saziş dövrü boyu Peyğəmbrimiz (səv) yəhudilərlə mülayim davranmışdır. Bir hədisində "müsəlmanlarla yəhudilər arasında yardımlaşma, nəsihət və yaxşılıq olacaq"[12] demiş və həqiqətən də, bu sözünü həyata keçirmişdir. Peyğəmbərimizin (səv) bu ədalətli və mərhəmətli münasibəti, əlbəttə, hər dindən, hər milliyyətdən olan insanlara ünvanlanır. Peyğəmbərimiz (səv) hər cür xəyanətə, hücuma və tələlərə baxmayaraq, **"... insanları bağışlayırlar."** (Ali İmran surəsi, 134) ayəsində bildirdiyi kimi, həmişə bağışlama yolunu seçmişdir. **"İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mübahisə et."** (Nəhl surəsi, 125) ayəsində bildirildiyi kimi, həmişə gözəl öyüd-nəsihət ilə insanları İslama dəvət etmişdir.

**Xəlifələr dövründə də ədalət**
**Quran əsasında tətbiq edilmişdir**

Müqəddəs Peyğəmbərimiz hz. Muhəmmədin (səv) vəfatından sonra onun yerinə keçən xəlifələr də Peyğəmbərimiz (səv) kimi Allahın ədalətini tətbiq etməkdə həssas davranıblar. Fəth edilən ölkələrdə həm oranın yerli xaqı, həm də yeni gələnlər sülh və əmin-amanlıq

içində yaşamışdırlar. İlk xəlifə hz. Əbubəkr Suriya səfərinə çıxdıqda təlimat vermişdir. Ələ keçiriləcək yerlərdə tətbiq edilməsini istədiyi ədalətli, mərhəmətli davranışlar Quran əxlaqına dair gözəl nümunədir. Hz. Əbubəkrin təlimatları belədir:

"Ey insanlar, ürəkdən tətbiq edəcəyiniz on qayda verirəm: xəyanət etməyin və haqq yoldan çıxmayın. Uşağı, qadını və yaşlı insanları öldürməyin. Xurma ağaclarını yandırıb məhv etməyin və hər hansı meyvə verən ağacı da kəsməyin. Dəvələrdən, sürülərdən və ya dəstələrdən hər hansı birini öldürməyin. Özünüz üçün saxlayın. Həyatını axirət üçün əməllərə həsr etmiş şəxslərlə qarşılaşacaqsınız, onları münzəvi vəziyyətdə qoyun. Müxtəlif qidalar ikram edən insanlarla qarşılaşacaqsınız, yeyin, ancaq Allahın adını zikir etməyi unutmayın."[13]

Ədaləti ilə tanınan hz. Ömər də hz. Əbubəkrdən sonra Peyğəmbərimiz (səv) kimi ələ keçirilən ölkələrin yerli xalqı ilə ədalət və tolerantlıq nümunəsi olan müxtəlif sazişlər bağlamışdır. Məsələn, hz. Ömər Qüds və Lüdd xristianlarına verdiyi amannamədə kilsələrin dağıdılmayacağına və kilsələrdə müsəlmanların kütləvi ibadət etməyəcəklərinə dair zəmanət vermişdir. Ləhm xristianlarına da həmin şərtləri təqdim etmişdir. Mədainin fəthi ilə Nasturi patriarxı II İşuayhebə (650-660) verilən amannamədə də eyni şəkildə kilsələrin dağıdılmayacağına, heç bir binanın məscidə və ya evə çevrilməyəcəyinə dair zəmanətlər verilmişdir.[14] III Nasturi patriarxının fəthlərdən sonra dostuna yazdığı məktub da müsəlman idarəçilərin kitab əhlinə mərhəmətini və şəfqətini izah etməsi baxımından gözəl nümunədir:

*"Allahın iradə verdiyi bu ərəblər... bizə heç zülm etmədilər. Həqiqətən, onlar dinimizə, dini nümayəndələrimizə, kilsə və monastırlarımıza hörmət etdilər..."*[15]

Hz. Ömərin verdiyi himayə sənədi bizə bir möminin Quranda təsvir edilən əxlaqla davrandığı təqdirdə necə sevgi dolu və mərhəmətli olduğunu göstərir:

"Bu verilən aman xəstə-sağlam, yaxşı-pis bölgə xalqının bütün fərdləri üçün din, can, mal, kilsə və monastırların himayəsi üçündür. Kilsələr dağıdılmayacağı kimi, məskən də edilməyəcək və onlardan heç nə əskildilməyəcək. Xalqdan heç kəs zərrə qədər zərər görməyəcək. Bu kitabda yazılmış xüsuslar Allah və Rəsulunun əhdi, xəlifələrin və möminlərin borcudur."[16]

Bütün bu nümunələr əməlisaleh möminlərin ədalət və sevgi anlayışını göstərən hikmətli nümunələrdir.

Xəlifələr dövründə edilən fəthlər sayəsində bölgə xalqı həm zülmdən xilas olmuş, həm də İslamı tanımaq imkanı qazanmışdır. Ancaq xalq İslamı qəbul etmək üçün qətiyyən məcbur edilməmişdir. Allahın **"Sizin dininiz sizə, mənim dinim də mənədir!"** (Kafirun surəsi, 6) ayəsində bildirdiyi kimi, hər kəs dininə sərbəst qulluq etmiş, ibadətlərini azad şəkildə yerinə yetirmiş və heç bir təzyiqlə qarşılaşmamışdır. Onlar İslamı bu dinə həqiqi mənada qulluq edən müsəlman xalqdan görərək öyrənmişdirlər və bu şəkildə İslam onlarda daha böyük təsir oyandırmışdır. İman gətirənlər səmimi qəlbdən Allaha iman gətirmək üçün xalqı dəvət etdikdə böyük əksəriyyəti dəvəti qəbul etmiş, bu şəkildə müsəlman olanların sayı sürətlə artmışdır. Məsələn, hz. Əbubəkrin dövründə Kində və İyad xristianlarının bir qismi, Şamın fəthindən sonra yerli xalqın bir qismi heç bir məcburiyyət olmadan, öz istəkləri ilə

müsəlmanlığı qəbul etmişdir.[17] Müsəlmanların fəth etdiyi ölkələrdə zorla İslamı qəbul etdirdikləri kimi yanlış inanc qərb tədqiqatçıları tərəfindən təkzib edilmiş, müsəlmanların ədalətli, mərhəmətli münasibəti hər kəs tərəfindən təsdiqlənmişdir. Qərbli tədqiqatçı L. Braun (L. Browne) bu barədə belə yazır:

"... Doğruluğuna şübhə olmayan həqiqətlər müsəlmanların getdikləri hər yerdə xalqa qılınc gücünə İslamı qəbul etdirdiklərinə dair xristian mənbəli iddiaların kökündən əsassız olduğunu sübut edir... Fəthlərin ardındakı dinamik amil onların dəvət etdikləri İslam qardaşlığı idi. Məhz bu qardaşlığın miqyası da yeni üzvləri ilə sürətlə böyüyürdü."[18]

## QURANDA KİTAB ƏHLİ

Dünyada rəngi, dili, inancları müxtəlif olan bir çox insan cəmiyyəti var. Bu fərqlər əvvəlki bölmələrdə də bəhs edildiyi kimi, din əxlaqı ilə yaşamayan ölkələrdə əsrlərdir ki, düşmənçiliyə səbəb olmuşdur. Bu cür fərqlərə malik xalqların əsla birlikdə sülh şəraitində yaşamayacağına və aralarında həmişə iğtişaş olacağına dair insanlar arasında geniş yayılmış fikir vardır. Halbuki bu, çox böyük aldanışdır. Çünki insanları müxtəlif xalqlar şəklində yaradan Allahdır. Allah Quranda bütün insanları sülhə və əmin-amanlığa çağırır:

**Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir! (Bəqərə surəsi, 208)**

**Allah əmin-amanlıq yurduna çağırır və istədiyini doğru yola yönəldir. (Yunus surəsi, 25)**

Allahın elçiləri vasitəsilə insanlara bildirdiyi bütün dinlər insanları bir olan Allaha iman gətirməyə dəvət edir, gözəl əxlaqı tövsiyə edir və pis əxlaqdan çəkindirir. İslamdan başqa dinlər təhrif edilsə də, bu gün hələ də bəzi prinsiplərinin eyni olduğu görünür. Bu səbəbdən də dövrümüzdə yaradılan bu süni münaqişələrin əslində heç bir əsası, məntiqli açıqlaması yoxdur. Yuxarıdakı ayədə də bildirildiyi kimi, insanlar arasındakı narazılıqların əsas səbəbi Allahın dəvətini qəbul etməmələri və şeytanın yolu ilə getmələrdir.

Göylərin və yerin Rəbbi olan Allaha iman gətirən qulların bir-birlərinə düşmənçilik münasibəti bəsləməsi Allahın razı qalmadığı əxlaqdır və bütün iman gətirənlər bu əxlaqdan çəkindirilirlər. Allah insanlar arasında sülhü, sevgini və dostluğu tövsiyə etmişdir. Allahın

son elçisi hz. Muhəmməd (səv) vasitəsilə bildirdiyi Quranda iman gətirənlərə bu barədə açıq-aydın əmrlər və tövsiyələr var.

## Quranda kitab əhlinin vəziyyəti

Quranda tövhid inancına malik və Allahın elçiləri vasitəsilə nazil etdiyi dinlərə mənsub şəxslər – yəhudilər və xristianlar "kitab əhli" adlandırılır. İman gətirənlərin kitab əhlinə münasibəti, aralarındakı münasibət və sosial həyatdakı mövqelərinin necə olması ayələrdə və Peyğəmbərimizin (səv) hədislərində ətraflı bildirilmişdir. Kitab əhlinin Allahın vəhyinə əsaslanan bir çox əxlaqi dəyəri, haram və halal məfhumları var. Ona görə kitab əhlinin bişirdiyi yemək müsəlmanlar üçün Quranda halal edilmişdir. Eyni şəkildə müsəlman kişilərə kitab əhlindən olan qadınlarla evlənməyə icazə verilmişdir. Bununla bağlı ayədə Allah belə buyurur:

**Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin azad və ismətli qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar! (Maidə surəsi, 5)**

İslam tarixinə baxdıqda müsəlman ölkələrində kitab əhlinə həmişə mülayim və mərhəmətlə davranıldığı diqqət çəkir. Bu hal xüsusilə Osmanlı imperiyasında daha çox nəzərə çarpır. Məlum olduğu kimi, katolik İspaniynanın yaşamaq hüququ vermədiyi və sürgün etdiyi yəhudilər axtardıqları rahatlığı Osmanlı torpaqlarında tapmışdırlar. Sonrakı bölmələrdə ətraflı təhlil edəcəyimiz kimi, Fateh Sultan Mehmet İstanbulu fəth etdikdə şəhərdə həm xristianlara, həm də yəhudilərə azad yaşamaq hüququ vermişdir. Bütün Osmanlı tarixi boyu yəhudilərə və xristianlara kitab əhli kimi münasibət göstərilmiş və rahat yaşamalarına imkan verilmişdir.

## Müsəlmanın yəhudilərə münasibəti necə olmalıdır?

Əvvəlki səhifələrdə də nümunələrinə yer verdiyimiz kimi, Peyğəmbərimiz (səv) bütün həyatı boyu kitab əhli ilə çox ədalətli və tolerant davranmışdır. Peyğəmbərimizin (səv) bu münasibətinə görə yəhudilərin öndə gələn ravvinlərindən Abdullah ibn Səlam və dostları İslamı qəbul etmiş, iman gətirmişdirlər.

Avropa tarixində rast gəlinən və xristianların dini təəssübkeşliyindən qaynaqlanan inkvizisiya məhkəmə icraatlarına və ya irqi ayrı-seçkilikdən doğan anti-semitizmə (yəhudi əleyhdarlığı) heç vaxt rast gəlinməmişdir. Yəhudilərlə müsəlmanlar arasında XX əsrdə Orta Şərqdə yaranan münaqişə və narazılıq isə bəzi yəhudilərin ateist sionizmi mənimsəməsi ilə ortaya çıxmışdır. Sionizm XIX əsrin ortalarında yurdları olmayan yəhudilərin vətən sahibi olmasını istəyən ideologiya kimi ortaya çıxmışdır. Ancaq zaman ərzində bir çox ideologiya kimi sionizm də təhrif edilmiş, bu haqlı tələb terrora və zorakılığa əl atan, radikal qüvvələrlə ittifaq quran radikal məfhuma çevrilmişdir. Ateist sionizm isə irqçi, şovinist və işğalçı ideologiyadır.

Dövrümüzdə sionizm iki fərqli şəkildə qarşımıza çıxır. Bunlardan birincisi İsraildə sülh və əmin-amanlıq şəraitində müsəlmanlarla birlikdə yaşamaq istəyən, təhlükəsizlik axtaran, əcdadlarının torpaqlarında ibadət edib, ticarətlə məşğul olub yaşamaq istəyən dindar yəhudilərin inancı olan sionizmdir. Müsəlmanlar bu sionizmi dəstəkləyirlər. Dindar yəhudi xalqının müqəddəs hesab etdikləri torpaqlarda sülh və əmin-amanlıq içində yaşamaları, Allahı zikir etmələri, sinaqoqlarda ibadət etmələri, torpaqlarında elm və ticarətlə məşğul olmaları iftixar ediləcək şeydir.

Səmimi dindar yəhudinin Tövrata əsaslandırdığı sionist inancı Qurana zidd deyil. Çünki yəhudilərin həmin bölgədə yaşaması Quranda işarə edilən həqiqətdir. Quranda Allahın İsrail oğullarını yaşadığı bu torpaqlarda məskunlaşdırdığı belə bildirilir:

**O zaman Musa öz qövmünə demişdi: “Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. O, sizin aranızdan peyğəmbərlər göndərdi, sizi hökmdarlar təyin etdi və aləmlərdən heç kəsə vermədiyini sizə verdi. Ey qövmüm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və arxa çevirməyin ki, ziyana uğrayaraq dönməyəsiniz”. (Maidə surəsi, 20-21)**

Ancaq bir müsəlman kimi **dinsiz, Allahsız sionizmi** tənqid edir və təhlükə hesab edirik. Allahın varlığını, birliyini müdafiə etməyən, materialist, darvinist anlayışa təşviq edərək dinsizlik propaqandası aparan Allaha inanmayan sionistlər dindar yəhudilər üçün də təhlükədir. Dinsiz sionizm dövrümüzdə sülhə, əmin-amanlığa, gözəl əxlaqa qarşı mübarizə aparır, daima fitnə-fəsad, qarışıqlıq törədir, qan tökür. Müsəlmanlar və dindar yəhudilər dinsiz sionizmə qarşı Allah inancının yayılması üçün birlik olmalıdırlar.

Əlbəttə, ateist sionizm müsəlmanlar üçün də, qlobal sülh üçün də çox təhlükəli və zərərli ideologiyadır. Bu zərərli ideologiya ilə fikri mübarizə hər müsəlmanın, dinindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər insanın vəzifəsidir. Ancaq hər məsələdə olduğu kimi, bunda da ədaləti qorumaq, ön mühakimə ilə davranmamaq çox vacibdir. Müsəlman radikal sionistlərə qarşı çıxarkən məsum yəhudilərə qarşı zülm edilməsinə, ədalətsizliklə davranılmasına mane olmalıdır.

Hər cür irqi-ayrı seçkilik kimi anti-semitizm də (yəhudi düşmənçiliyi) İslam əxlaqına zidd ideologiyadır. Bir müsəlman insanlar arasında dininə, irqinə və etnik mənşəyinə görə

heç bir ayrı-seçkilik etmədən hər cür soyqırım, işgəncə və zülmə qarşı olar. Müsəlman nə yəhudilərə, nə də başqa millətə qarşı edilən ən kiçik haqsızlığa, təcavüzə razı olmaz, əksinə, mane olar. Quranda yer üzündə fitnə-fəsad törədənlər, insanlara zülm edənlər, haqsız yerə cana qıyanlar lənətlənir. Bu barədə bəzi ayələr aşağıdakılardır:

**Allahın sənə verdiyindən özünə axirət qazan. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!" (Qasas surəsi, 77)**

**Əgər üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz. Onlar Allahın lənətlədiyi, qulaqlarını kar və gözlərini kor etdiyi kimsələrdir. (Muhəmməd surəsi, 22-23)**

**Cəza ancaq insanlara zülm edənlərə, yer üzündə fitnə-fəsad törədənlərə verilər. Məhz belələrini şiddətli əzab gözləyir! (Şura surəsi, 42)**

Allahın bu əmrlərinə uyğun olaraq ateist sionizmə qarşı aparılan fikri mübarizə "yəhudi düşmənçiliyi"nə çevrilməməli, məsum insanlar bu münasibətə məruz qalmamalıdırlar. Ədalətli və mərhəmətli olmaq bunu tələb edir.

Digər tərəfdən, anti-semitizm kimi digər irqi ayrı-seçkilik nümunələri də (məsələn, zənci düşmənçiliyi və s.) müxtəlif ideologiya və batil inanclardan qaynaqlanır. Anti-semitizm və digər irqi ayrı-seçkilik nümunələrini təhlil etdikdə bunların Quran əxlaqına tamamilə zidd düşüncə tərzini və cəmiyyət modelini müdafiə etdikləri açıq-aydın görünür. Məsələn, anti-semitizmin kökündə nifrət, zorakılıq və zalımlıq hisləri var. Bir anti-semit yəhudilərin (qadın, uşaq, yaşlı ayırd etmədən) qətlə yetirilməsini, işgəncəyə məruz qalmasını müdafiə edəcək qədər zalım ola bilər. Halbuki Quran əxlaqı insanlara ədalət, sevgi, şəfqət və mərhəmət öyrədir. Müsəlmanlara düşmənlərinə belə ədalətli olmağı və lazım gəldikdə bağışlamağı əmr edir. Quranda bildirilən bir hökmə əsasən, **"... kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür..."** (Maidə surəsi, 32). Beləliklə, bir məsum insanın belə qətlə yetirilməsi böyük günahdır.

Digər tərəfdən, anti-semitlər və digər irqçilər müxtəlif etnik mənşədən gələn, yaxud müxtəlif inanca malik insanların sülh içində birlikdə yaşamasına qarşıdırlar. Məsələn, alman irqçisi olan nasistlər almanlarla yəhudilərin birlikdə yaşamalarına qarşı çıxmışdırlar, bunu öz irqləri üçün degenerasiya hesab etmişdirlər. Halbuki Quranda irqlər arasında ən kiçik ayrı-seçkilik edilmədiyi kimi, müxtəlif inanclardan olan insanların eyni cəmiyyətdə sülh və əmin-amanlıq içində yaşamasına təşviq edilir.

Quranda hətta iman gətirməyən, Allahı və dini qəbul etməyənlər haqqında da ayrı-seçkilik edilmir. Dinə düşmən olanlarla dost olmamaq, düşmənçilik etməyənlərlə ədalətlə davranmaq ayələrdə belə əmr edilir:

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır. (Mumtəhənə surəsi, 8-9)**

Quranda müəyyən irq, xalq və ya dindən olan insanlar haqqında kütləvi hökm də əmr edilir. Hər insan cəmiyyətinin içində yaxşılar da, pislər də var. Quranda bu ayrı-seçkiliyə diqqət çəkilir. Məsələn, kitab əhlinin bir qisminin Allaha və dinə üsyan etdikləri izah edildikdən sonra, istisna hallar da bildirilir və belə deyilir:

**<u>Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar.</u> Onlar Allaha, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali İmran surəsi, 113-115)**

Nəticə etibarilə, Quran ayələri əsasında düşünən və Allahdan qorxan müsəlmanlar yəhudilərə dinlərinə və inanclarına görə düşmənçilik etməzlər. Quran əxlaqı hər cür ayrı-seçkiliyi aradan qaldırır. Bu səbəbdən Qurana tabe olan bir müsəlman əsla irqi ayrı-seçkilik etməz və insanları müəyyən millətdən olduqlarına görə həqir görməz. Quranda İslama və müsəlmanlara qarşı düşmənçilik etmədikcə müxtəlif dinlərə qarşı çox mülayim və dostyana münasibət göstərmək əmr edilir. Buna görə Qurana tabe olan müsəlman müxtəlif dinlərə, xüsusilə kitab əhlinə qarşı insanpərvər və dostyana davranmalıdır.

Müsəlmanın yəhudilik və soyqırım məsələlərinə münasibəti bu əsas prinsiplərə bağlı olmalıdır. Bəzi yəhudilərin tənqid olunması onların irqi ayrı-seçkilik etmələrinə, radikal sionizmin adından qan tökmələrinə, təhrif edilmiş bəzi Tövrat hökmlərini əsas alaraq digər insanlara zülm etmələrinə görədir. Müsəlman həm anti-semit irqçi hərəkatların, həm də radikal sionizm kimi yəhudilər adından irqi ayrı-seçkilik edən ideologiyaların tarixə qarışmasını, hər irqdən və inancdan olan insanların sülh içində birlikdə yaşamasını, ədalət üzərində qurulmuş dünya nizamının qurulmasını istəməlidir.

### Kitab əhlinin ibadət yerlərinə hörmət edilməsi

Müsəlman kitab əhlinin Allaha ibadət etdiyi müqəddəs yerlərinə hörmət etməli, bu ibadətgahları qorumalıdır. Bu yerlər istər xristianlara, istər yəhudilərə məxsus olsun, içində uca Rəbbimiz Allah zikir edildiyi üçün müsəlmanlar üçün də dəyərlidir və bütün iman gətirənlər tərəfindən qorunmalıdır. Quranda kitab əhlinin ibadət yerləri olan monastırlar, kilsələr və sinaqoqlardan Allahın qoruduğu ibadətgahlar kimi bəhs edilir:

**... Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc surəsi, 40)**

Peyğəmbərimiz (səv) Allahın əmrlərinə itaətinin bir təcəllisi olaraq kitab əhlinin ibadət yerlərinin dağıdılmamasına xüsusi diqqət yetirmişdir. Bu yerləri dağıtmaq, əvvəla, Allahın əmrinə qarşı çıxmaqdır, bundan əlavə, Allaha inanan, Ona ibadət edən insanlara mane olmaq deməkdir. Hz. Muhəmməd (səv) sülh sazişi imzaladığı xristianlara kilsələrinin dağıdılmayacağını, onlara heç bir zərər verilməyəcəyini bildirmişdir. Xristianlarla bağlanan cizyə sazişlərində də Peyğəmbərimiz (səv) kilsələrinin dağıdılmayacağına zəmanət vermişdir.

Hz. Muhəmməddən (səv) sonrakı dövrdə kilsələrin dağıdılmayacağına dair zəmanət verilən ilk saziş Xalin ibn əl-Vəlidin Anat şəhərinin idarəçisi ilə bağladığı cizyə əqdidir. İbn İshaq Xalid ibn əl-Vəlidin bağladığı bu əqdlərin hz. Əbubəkir tərəfindən qəbul edildiyini, daha sonra gələn digər üç xəlifənin də bunları uyğun hesab edərək davam etdirdiklərini bildirmişdir.[19] Bundan əlavə, hz. Əbubəkir nəcranlılara Peyğəmbərimiz hz. Muhəmməd (səv) tərəfindən verilən zəmanətləri eynilə öz xəlifəliyi dövründə də davam etdirmişdir.

Peyğəmbərimizdən (səv) sonra əsil İslam əxlaqı ilə yaşayan ölkələrdə də bu məsələyə riayət edilməsi diqqət çəkir. Quranı və Peyğəmbərimizin (səv) sünnəsini davam etdirən müsəlman idarəçilər fəth etdikləri ölkələrdəki qeyri-müsəlman xalqların ibadətgahlarına hörmət etmiş, din adamlarına mərhəmət göstərmişdirlər. Müsəlmanların idarəsi altında uzun əsrlər boyu yaşayan xristianlar dini məsələlərə görə heç vaxt üsyan qaldırmayıblar. Bu da, əlbəttə, müsəlman idarəçilərin Quranın hökmlərinə bağlı, ədalətli və insanpərvər rəftarlarının nəticəsidir.

## HZ. MEHDİNİN (ƏS) DÖVRÜNDƏ BÜTÜN DÜNYAYA BƏNZƏRSİZ ƏDALƏT HAKİM OLACAQ

Uca Allah Qurani-kərimdə İslam əxlaqını yer üzünə hakim edəcəyini bildirmişdir. Peyğəmbərimiz (səv) də hədislərində bu böyük, mübarək hadisəyə axırzamanda hz. Mehdinin (əs) vəsilə olacağını xəbər vermişdir. Quran əxlaqına uyğun olaraq və Peyğəmbərimizin (səv) bildirdiyi kimi, İslam əxlaqı sevgi ilə hakim olacaq. İslam əxlaqının hakim olması ilə yer üzü sülh və əmin-amanlığa qovuşacaq, hər cür qarışıqlığa, münaqişəyə, anarxiya və terrora son qoyulacaq. Axırzamanın qarışıqlığından və zülmündən əziyyət çəkən insanlar İslam əxlaqını yer üzünə hakim edəcək hz. Mehdinin (əs) ədalətindən, mərhəmətindən, comərdliyindən, sevgisindən, diqqətindən razı qalacaqlar. Axırzamanda hz. Mehdinin (əs), Allahın izni ilə, mütləq zühur edəcəyi Peyğəmbərimizin (səv) hədislərindən birində belə müjdələnmişdir:

*Dünyada bir gün qalsa belə, (qiyamət qopmamışdan əvvəl) Allah həmin günü uzadacaq, adı adıma, atasının adı da atamın adına uyğun, əhli-beytimdən olan bir şəxs (hz. Mehdi (əs)) mütləq gələcək, zülm və haqsızlıqla dolu olan yer üzünü ədalət və insafla dolduracaq.* (Ebu Davud ve Tırmizi / Büyük Hadis Külliyatı, Rudani 5-ci cild, səh. 365)

Hədislərdə bildirildiyinə görə, hz. Mehdi (əs) hicri 1400-cü ildə zühur edəcək və İslam əxlaqını yer üzünə hakim edəcək. Hz. Mehdinin (əs) zühur etməsi ilə yer üzündəki bütün zülm və haqsızlıqlar sona çatacaq, dünyaya ədalət, sülh, sevgi, əmin-amanlıq hakim olacaq. Kütubi-sittədə olan hədislər, İmam Rəbbani, Suyuti, Bərzənci, Bədiüzzaman Səid Nursi kimi böyük İslam alimlərinin verdiyi açıqlamalar əsasında hz. İsanın (əs) yenidən yer üzünə qayıtmasının, hz. Mehdinin (əs) zühurunun, İslam əxlaqının yer üzünə hakim olmasının vaxtının hicri 1400-cü il, yəni yaşadığımız dövr olduğu açıq-aydındır (ətraflı məlumat üçün bax: www.hazretimehdi.com).

Peyğəmbərimizin (səv) hədislərində verilən hadisələrin – hər cür məhsul və mal bolluğunun olması, təhlükəsizliyin, asayişin, ədalətin təmin edilməsi, sülh və səadət, maddi-mənəvi hər cür imkanın insanların rahatlığı, sevinci üçün istifadə edilməsi, ehtiyac içində olan kimsənin qalmaması, istəyənə istədiyi şeydən hesaba vurulmadan qat-qat artıq verilməsi hz. Mehdinin (əs) vəsiləsi ilə hicri 1400-cü ildə, yəni bu dövrdə olacaq. Hz. Mehdinin (əs) vəsiləsi ilə bərqərar olacaq bu ədalət və əmin-amanlıq mühiti çox geniş miqyasda və bənzərsiz olacaq. Mövzu ilə bağlı Peyğəmbərimizdən (səv) rəvayət edilən hədislərdən bəziləri aşağıdakılardır:

Qiyamətin qopması üçün zamanda sadəcə bir gündən başqa vaxt qalmasa da, Allah mənim əhli-beytimdən bir nəfəri göndərəcək. Yer üzü zülmlə dolduğu kimi, **O, (HZ. MEHDİ (ƏS)) YER ÜZÜNÜ ƏDALƏTLƏ DOLDURACAQ.** (*Sünen-i Ebu Davud, 5/92*)

**HZ. MEHDİNİN (ƏS) ZAMANINDA ƏDALƏT O QƏDƏR GENİŞ YAYILACAQ Kİ,** zorla alınan hər mal sahibinə qaytarılacaq. (*El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23*)

**HZ. MEHDİ (ƏS) ƏDALƏTLİ HAKİM OLARAQ ÇIXACAQ...** (*El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 31*)

**ONUN (HZ. MEHDİNİN (ƏS)) ƏDALƏTİ HƏR YERİ BÜRÜYƏCƏK** və insanlar arasında hz. Peyğəmbərin sünnəsi ilə rəftar edəcək. Hətta birinə mala ehtiyacı olan kim varsa, çağırmasını deyəcək, həmin şəxs əmrini yerinə yetirdikdə ancaq bir nəfər gələcək. (*El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 20*)

Hz. Mehdiyə (əs) aralarında qadınların da olduğu 314 nəfər beyət edəcək və hər zalım onun qarşısında məğlub olacaq. **DÖVRÜNDƏ O QƏDƏR ƏDALƏT OLACAQ Kİ,**

**QƏBİRDƏKİ ÖLÜLƏR DİRİLƏRƏ QİBTƏ EDƏCƏKLƏR...** (*El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 22*)

Hz. Mehdi (əs) məndəndir, yer üzü zülm və işgəncə ilə dolduğu kimi, **ONU DOĞRULUQ VƏ ƏDALƏTLƏ DOLDURACAQ.** (*Süneni-i Ebu Davud, 5/93*)

İnsanlar bal arılarının kraliçalarının ətrafında toplanması kimi, hz. Mehdinin ətrafında toplanacaqlar. **DAHA ƏVVƏL ZÜLMLƏ DOLU OLAN DÜNYANI O, (HZ. MEHDİ (ƏS)) ƏDALƏTLƏ DOLDURACAQ. O QƏDƏR ƏDALƏTLİ OLACAQ Kİ, YUXUDA OLAN BELƏ OYANDIRILMAYACAQ VƏ BİR DAMLA QAN AXIDILMAYACAQ. DÜNYA SANKİ ƏSRİ-SƏADƏT DÖVRÜNƏ QAYIDACAQ.** (*El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 29*)

# NƏTİCƏ

Kitab boyu iman gətirən insanın ədalət anlayışının və sevgi dolu rəftarının necə olmasından, bu cür ədalət və əxlaq insanlar arasında hakim olduqda necə cəmiyyət formalaşacağından bəhs edilmişdir. Ancaq burada bir cəhətin də üzərində dayanmaq lazımdır: insanların cəmiyyətdə ədaləti bərqərar etmək üçün cəhd etməsi eyni zamanda bu insanların Allahın dininə uyğun yaşamaqda və Quran ayələrini tətbiq etməkdə dəqiqliklərini də göstərir.

Ona görə də Qurana iman gətirən müsəlmanlar əsil ədaləti tam tətbiq etməlidirlər. Bir müsəlman Allahın Quranda bildirdiyi oruc, 5 vaxt namaz, örtü kimi əmr və ibadətlərinə necə ciddi yanaşırsa, eyni şəkildə Allahın əmr etdiyi kimi, ədalətlə hökm verməklə və mərhəmətli olmaqla da məsuldur. Əks təqdirdə bu, Quran ayələrinin bir qisminə inanıb digər qisminə inanmamaq deməkdir ki, Quranda insanların bu xətaya düşəcəyinə diqqət çəkilmişdir:

**... Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir. (Bəqərə surəsi, 85)**

Mömin Allahın ayələrdə bildirdiyi əzabının nə qədər şiddətli olacağını çox yaxşı bilir. Allah ən ədalətli, insanlar arasında ədaləti tam tətbiq edəndir. O, ədalətini dünyada olduğu kimi, axirətdə də qullarına göstərəcək. İnsanların bütün həyatı boyu etdikləri hər hərəkət, dedikləri hər söz, ağıllarından keçirdikləri hər fikir, böyük-kiçik hər əməl Allah qatında ədalətlə haqq-hesab olunacaq və insanlar buna əsasən əməllərinin qarşılığını alacaqlar. Bu qarşılıq ya sonsuz cənnət nemətləri, ya da cəhənnəm əzabıdır:

**Hamınızın dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, insanları yoxdan yaradır, sonra iman gətirib yaxşı işlər görənləri ədalətlə mükafatlandırmaq üçün yenidən dirildir. Kafirləri etdikləri küfrlərə görə qaynar su və şiddətli bir əzab gözləyir! (Yunus surəsi, 4)**

Məhz buna görə müsəlman Allahın razı qalmadığı hər cür davranışdan çəkinər. Peyğəmbərimizin (səv) dövründəki və daha sonra onun yolunu izləyən xəlifələr kimi bütün müsəlman idarəçilərin dövrlərindəki sülh və əmin-amanlığın səbəbi Qurana bağlılıqlarıdır.

Kitabda ən gözəl nümunələrlə təsvir edildiyi kimi, müsəlman türk xalqı da tarix boyu ədaləti, tolerantlığı, mərhəməti, vicdanı, heysiyyəti ilə dünyaya nizam vermiş şərəfli keçmişə malikdir. Bu səbəbdən də keçmiş təcrübələrindən faydalanaraq dünyada ədalətin bərqərar edilməsi və zülmə son qoyulması üçün qarşısında heç bir maneə yoxdur. Ediləcək tək şey milli birlik içində olmaq və Quranda öyrədilən əsil ədaləti dünyaya hakim etmək üçün ciddi səy göstərməkdir.

**"Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən."**
**(Bəqərə surəsi, 32)**

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SÜQUTU

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi, həmçinin təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, qərəzli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər əsərlərimizdə də bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq bu mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə əsaslı şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı. Özünün də qəbul etdiyi kimi, sadəcə fikir irəli sürmək idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşılaşdığı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir təkzib etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

***1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.***

***2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.***

***3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.***

Bu bölmədə bu üç başlığı əsas prinsipləri ilə təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbii qanunlar çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "təsadüfi törəmə" (spontaneous generation) adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərinə əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı

kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır". (*Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh.2*)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır". (*Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196*)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin Yer kürəsi şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (*"New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, oktyabr 1982, səh. 1328-1330*)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada (Jeffrey Bada) təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (*Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*)

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların belə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün

dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələri birləşdirərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin ən əsas quruluş vahidi olan zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət orta ölçülü zülal üçün $10^{950}$ 1-dir. Ancaq riyaziyyatda 1050-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən "qeyri-mümkün" hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik informasiyanı daşıyan DNT molekulu böyük informasiya bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi informasiya kağıza köçürülsə, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr. Burada çox maraqlı dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə ikiləşir. Ancaq bu fermentlərin sintezi də ancaq DNT-dəki informasiya əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə ikiləşmənin (replikasiya) baş verməsi üçün hər ikisi eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə əmələ gəlməsi ssenarisini çıxılmaz vəziyyətdə qoyur. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin əsla mümkün olmadığı nəticəsinə gəlir". (*Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78*)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini təkzib edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü hər iki anlayışının, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seçmə mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi: təbii seçmə yolu ilə..."

Təbii seçmə təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalması fikrinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq.

Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz. Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil.

Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", – demək məcburiyyətində qalmışdı. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189*)

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə ötürürlər, nəsildən-nəsilə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəsilə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184*)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə "neodarvinizmi" ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozuntuları əlavə etdi.

Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan (B. G. Ranganathan) bunu belə açıqlayır:

*"Mutasiyalar kiçik, təsadufi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xususiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yuksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadufi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadufi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha da yaxşılaşdırmır, onu məhv edir. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, təkbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə

heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişdirlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar. Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Həqiqətən də, bu cür canlılar keçmişdə yaşayıblarsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, novləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid novləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyiblərsə,* ***nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?*** *Geologiya yaxşı dərəcələndirilmiş bir prosos üzə çıxarmır və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq."( Əlavə haşiyə: Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer (Derek V. Ager) təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

*"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil,*

*birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”.* (*Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir.

Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Avstralopiteklər
Homo habilis
Homo erektus
Homo sapiens

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən avstralopitek (“australopithecus”) adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389*)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo ardıcıllığındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, – deyərək bunu qəbul edir. (*J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992*)

Təkamülçülər “avstralopitek > homo habilis > homo erektus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (*Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272*)

Habelə, homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşdurlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər.”(*S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30*)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fovqundə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarın bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı açıq misalla izah edək.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Bu ağlasığmaz iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni, sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı altında nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Yuxarıdakı misalda göstərildiyi kimi, təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünsək, bu həqiqət aşkar görünür.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir. Gözlə bağlı mövzuya keçməmişdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nahiyəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyinə heç bir işıq keçmir. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir.

Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə ikiölçülü görüntü göstərir, lakin siz üçölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üçölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üçölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üçölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq ən yüksək texnologiya ilə bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa, təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmamışdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi, cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində gorən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gəlməmisiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əvəzedilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*“Bizim materializmə inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna gorə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu,

həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdənkənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların urəyinə və qulağına möhür vurmuşdur. Gozlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətamizi vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və

məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir.

Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub duzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elm adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xusunsilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar, təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi təsvir ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**